# AZƏRBAYCANDA ALİ KİTABXANAÇILIQ TƏHSİLİ VƏ KİTABXANAŞÜNASLIQ ELMİ MƏKTƏBİNİN FORMALAŞMASINDA BAKI DÖVLƏT UNİVERSİTETİNİN ROLU

**ABUZƏR XƏLƏFOV**
***Əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin fəxri professoru, tarix elmləri doktoru, professor***

**KNYAZ ASLAN**
***BDU, Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent***

***Bakı Dövlət Universiteti
Azərbaycan xalqının milli sərvətidir!***

***Heydər ƏLİYEV***

***Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir.***

***İlham ƏLİYEV***

*Elmi məqalədə Azərbaycanda ali kitabxanaçılıq təhsilin inkişafı, həmçinin Əməkdar elm xadimi, professor Abuzar Xələfovun rəhbərliyi ilə kitabxanaşünaslıq elmi məktəbinin formalaşması mərhələləri təhlil edilmişdir. Məqalədə deyilir ki, Kitabxanaçılıq-informasiya fakültəsi Bakı Dövlət Universitetinin 1947/1948-ci tədris ilində yaradılmış fakültələrindən biridir.*

*Fakültənin məzunları elmdə və mədəniyyətdə mühüm yer tuturlar. Onlar informasiya mərkəzlərində, bütün tip və növ kitabxanalarda, nəşriyyatlarda və redaksiyalarda, televiziyada, radioda, mədəniyyətin və incəsənətin digər sahələrində işləyirlər.*

*Fakültədə təhsilin keyfiyyətin artırılması üçün təlimin maddi-texniki və informasiya bazası gücləndirilmiş, bu istiqamətdə tədris metodik şurasının işi yenidən təşkil edilmişdir. Tələbələrlə fərdi işin keçirilməsinə, kurs işlərinin keyfiyyətli icrasına nəzarət gücləndirilmişdir.*

*Kitabxanaçılıq-informasiya fakültəsi Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq təhsili sahəsində yüksək ixtisaslı kadrların hazırlığı üzrə elmi mərkəz kimi yaranmışdır. Fakultənin işində müəllimlərin elmi-tədqiqat fəaliy-*

*yəti böyük yer tutur. Bu gün fakültədə 30-dan çox elmlər doktoru və fəlsəfə doktoru hazırlanmışdır. Onlar professor Abuzar Xələfovun elmi məktəbinin davamçılarıdırlar.*

***Açar sözlər:** ali kitabxanaçılıq təhsili, kitabxanaşünaslıq elmi məktəbi, Bakı Dövlət Universiteti, Kitabxanaçılıq-informasiya fakültəsi, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, yüksək ixtisaslı kadrların hazırlığı, elmi mərkəz, elmi-tədqiqat fəaliyyəti.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" ölkəmizin gələcək inkişafının yol xəritəsi, iqtisadiyyatın sürətli inkişafına və bütövlükdə iqtisadiyyatın, büdcənin neft gəlirlərindən tamamilə azad edilməsinə gətirib çıxaracaq mühüm bir sənəddir. Bu tarixi sənədin icra edilməsi məqsədilə hazırlanmış "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə peşə təhsili və təlimi sahəsində dünyada mövcud meyillər nəzərə alınmış, ölkədə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi məqsədilə çeviklik və inteqrasiya prinsiplərinə əsaslanmışdır. Sənəddə peşə təhsili və təlimi sektoru üzrə 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyən edilmişdir.

Həmin sənədlərdə nəzərdə tutulmuş vəzifələrin uğurla həyata keçirilməsi ölkə başçısı İlham Əliyevin: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik" - sözlərinin əyani təsdiqinə çevriləcəkdir. Çünki bu taleyüklü məsələlər təhsil əsri elan edilən XXI əsrdə olduqca böyük aktuallıq kəsb edir.

Bu baxımdan Prezident İlham Əliyevin 21 iyun 2017-ci il tarixli sərəncamı da mühüm əhəmiyyətə malikdir. Sərəncamda deyilir: "Bakı Dövlət Universiteti Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Bakı Dövlət Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin".

Əlbəttə, bu status 100 illik yubileyini böyük elm və təhsil nailiyyətləri ilə qarşılamağa hazırlaşan Bakı Dövlət Universitetinin akademik və elmi fəaliyyətdə çevikliyini, eyni zamanda müasir korporativ idarəetmə modellərinin tətbiqini təmin etməyə kömək göstərəcəkdir. Bu status eyni zamanda universitetimizin inkişafı istiqamətində yeni perspektivlər müəyyənləşdirir. Belə ki, Azərbaycan xalqının milli sərvəti olan Bakı Dövlət Universiteti ölkəmizin ilk ali məktəbi, elm məbədgahı kimi respublikamızda xalq təsərrüfatının, elm, təhsil və mədəniyyətin bütün sahələri üçün yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanmasında və elmin inkişafında mühüm xidmətlər göstərmişdir. Müasir informasiya cəmiyyəti şəraitində respublikamızda sosial institut kimi





formalaşan, cəmiyyətin informasiya tələbatının ödənilməsində mühüm rol oynayan respublika kitabxanaları üçün peşəkar mütəxəssislərin yetişdirilməsi məhz Bakı Dövlət Universitetinin adı ilə bağlıdır.

İftixar hissi ilə deməliyik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 14 noyabr 2017-ci ildə "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda bildirilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir. Sənəddə qeyd edilir ki, Bakı Dövlət Universiteti tarixən vətənpərvər ziyalıların fədakar əməyi sayəsində yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülünə böyük töhfələr vermişdir.

Həmin sərəncam özünün şanlı 100 illik yubileyini tədris və elmi-tədqiqat sahəsində qazanılan mühüm nailiyyətlərlə qarşılamağa çalışan Bakı Dövlət Universitetinin çoxsaylı professor-müəllim heyəti və tələbə kollektivini yeni-yeni qələbələrə ruhlandırır. Bu baxımdan Bakı Dövlət Universitetinin aparıcı humanitar fakültələrindən biri olan Kitabxanaçılıq-informasiya fakültəsinin işgüzar kollektivi də yubileyə öz töhfələrini vermək üçün ciddi səy göstərir.

Fikrimizcə, BDU-da Kitabxanaçılıq şöbəsinin yaranması və onun inkişafı haqqında mühüm əhəmiyyət kəsb edən bir sıra tarixi faktları xatırlatmaq yerinə düşər.

Cəmiyyətdə vacib sosial funksiyaları həyata keçirən kitabxanalar ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni vəzifələrin həllində, dövlətin və xalqın inkişafı ilə bağlı mühüm ideyaların əhali arasında yayılmasında fəal iştirak etməli, böyük təbliğatçılıq, təşviqatçılıq və təşkilatçılıq işi aparmalıdırlar.

Azərbaycanda sovet hakimiyyəti illərində bu sahədə bir sıra nailiyyətlər qazanılmış, elm, texnika, xalq təsərrüfatı və mədəniyyətin bütün sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlayan ali və orta ixti-sas məktəblərinin geniş sistemi yaradılmışdır. Bu sistem böyük tarixi inkişaf yolu keçmiş, getdikcə təkmilləşmiş və dünyada mütərəqqi sistemlərdən birinə çevrilmişdir.

Sovet təhsil sisteminin nailiyyətlərindən biri də Sovetlər Birliyində yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlayan ali məktəb şəbəkələrinin yaranıb formalaşması ilə əlaqədar idi. Azərbaycanda kitabxanaçı kadrların hazırlanması prosesi ilk kitabxanaçılıq kurslarından universitet təhsilinə qədər uzun yol keçmişdir. Hələ sovet hakimiyyətinin ilk illərindən mədəni quruculuğun mühüm sahəsi olan kitabxana işinin inkişafına, yeni kitabxanalar yaradılmasına xüsusi diqqət yetirilmişdir. Ilk dövlət dekretləri ilə bütün kitabxanalar milliləşdirilmiş və yeni kitabxanaların təşkili üçün müəyyən tədbirlər həyata keçirilməyə başlanmışdı. Kitabxanaçı kadrların hazırlanması siyasi və mədəni əhəmiyyətə malik bir vəzifə olduğundan Azərbaycan SSR Maarif Komissarlığının

hazırladığı tədbirlər planında dövlət işçilərinin, tanınmış ziyalıların, təcrübəli müəllimlərin kitabxana işinə cəlb edilməsinə xüsusi diqqət yetirilirdi.

1920-1930-cu illərdə Azərbaycanda kitabxanaçı kadrlar yalnız vaxtaşırı təşkil edilən biraylıq, üçaylıq, bəzən isə altıaylıq kurslarda hazırlanırdı. Azərbaycanda ilk kitabxanaçılıq kursları 1920-ci ildən təşkil edilməyə başlamışdı. Kitabxana quruculuğu bünövrəsinin qoyulmasında və möhkəmləndirilməsində yaxından iştirak etmiş ilk mütəxəssis kitabxanaçılar məhz bu kursların yetişdirmələri idilər. İlk vaxtlar kitabxanaçılıq kurslarını Azərbaycan SSR Xalq Maarif Komissarlığı, Bakı Şəhər Xalq Maarif Şöbəsi, Azərbaycan Həmkarlar İttifaqları Mərkəzi Şurası, M.F.Axundov adına Respublika Dövlət Kitabxanası, bəzi hallarda isə kitabxana şəbəkəsi olan nazirliklər təşkil edirdilər. Bu cür kurslar əvvəllər əsasən Bakı şəhərində təşkil edilirdi. 30-cu illərin axırlarından isə respublikanın bir sıra böyük şəhərlərində, rayon mərkəzlərində, Naxçıvanda və Dağlıq Qarabağda da kitabxanaçılıq kurslarının təşkilinə başlanılmışdı.

Azərbaycan üçün orta və ali təhsilli kitabxanaçı kadrların hazırlanması məqsədi ilə Xalq Maarif Komisarlığı 1936-cı ildən başlayaraq Moskva Kitabxanaçılıq İnstitutuna və Leninqrad Siyasi Maarif İnstitutuna tələbələr göndərirdi. Əlbəttə, Azərbaycanda kitabxanaların, o cümlədən elmi və xüsusi kitabxanalar şəbəkəsinin sürətlə genişlənməsi, on minlərlə cild kitab fondlarına malik olan böyük kitabxanaların meydana gəlməsi, kitabxana işi prosesinin getdikcə mürəkkəbləşməsi, əhalinin ümummədəni səviyyəsinin yüksəlməsi, oxucuların sayının durmadan artması mütəxəssis kitabxanaçı kadrlara olan tələbatı daha da artırırdı. Ona görə də Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə 1938/1939-cu tədris ilindən Bakı Kitabxanaçılıq Texnikumunun (sonralar Bakı Mədəni-Maarif Məktəbi, hazırda Bakı Humanitar Kolleci) fəaliyyətə başlaması kitabxanaların ixtisaslı kadrlarla təmin edilməsinə imkan yaradırdı. Bununla belə, kitabxana işinin geniş vüsət alması, respublikamızın elmi və mədəni həyatında kitabxanaların rolunun artması, xalq içərisində mütaliəyə marağın çoxalması əhaliyə günün tələbləri səviyyəsində kitabxana xidmətini təşkil edə biləcək yüksək ixtisaslı mütəxəssis kitabxanaçılar hazırlanmasını tələb edirdi.

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi 1947-ci ildə "Respublika mədəni-maarif müəssisələri üçün kadr hazırlamaq haqqında" xüsusi qərar qəbul etdi. Bu sənəddə 1947/1948-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlayan Kitabxanaçılıq şöbəsinin təşkil edilməsi və onun gələcəkdə ayrıca fakültəyə çevrilməsi qərara alınmışdı. Şöbənin açılması işinin təşkili BDU-nun rektoru, akademik Abdulla Qarayevə və Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri, Sosialist Əməyi Qəhrəmanı, xalq yazıçısı Süleyman Rəhimova tapşırıldı. Bu görkəmli şəxsiyyətlərin birgə səyi nəticəsində SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi universitetin





filologiya fakültəsinin nəzdində kitabxanaçılıq şöbəsinin yaranmasına icazə verdi.

Beləliklə, 1947/1948-ci tədris ilində universitetin Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsi fəaliyyətə başladı və birinci il şöbəyə 16 tələbə – 5 oğlan və 11 qız qəbul edildi. Bu şöbənin təşkili respublikamızın mədəni həyatında mühüm əhəmiyyətə malik idi. Belə ki, şöbənin açılması mədəniyyətin mühüm tərkib hissəsi olan kitabxanaların yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin edilməsi üçün əsaslı zəmin yaradır, kitabxana işinin inkişafına təkan verirdi. Şöbənin məhz universitetdə açılması isə tədris prosesinin uğurlu təşkilinə səbəb olmaqla yanaşı, kitabxanaçılıq ixtisasının, kitabxanaçılıq sənətinin perspektiv inkişafına da şərait yaradırdı. Belə ki, yalnız hərtərəfli elmi-pedaqoji kadrlara malik olan universitet mühitində kitabxanaşünaslıq-biblioqrafiya ixtisasının xüsusiyyətlərinə uyğun olaraq müxtəlif fənlərin tədrisini təşkil etmək imkanı var idi.

Belə bir fakt da əlamətdardır ki, SSRİ-də ilk universitet kitabxanaçılıq təhsili məhz Bakı Dövlət Universitetində təşkil edilmişdir. Təcrübə göstərir ki, kitabxanaçı kadrların mədəniyyət institutlarında və pedaqoji institutlarda deyil, universitetdə hazırlanmasının olduqca böyük üstünlükləri vardır. Beşillik tədris planı ilə işləyən universitetlərdə kadr hazırlığının keyfiyyətini yüksəltmək, əsaslı və ictimai elmlərə dərindən yiyələnmiş geniş profilli kadrlar hazırlamaq üçün şərait olduqca əlverişlidir.

1947/1948-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsinin yaranmasında Azərbaycanın tanınmış elm və mədəniyyət xadimlərinin, o sırada 1944-1950-ci illərdə bu ali təhsil ocağının rektoru olan görkəmli fizioloq alim, Azərbaycan Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Abdulla Qarayevin, 1945-ci ildən respublika Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri vəzifəsində işləyən görkəmli yazıçımız Süleyman Rəhimovun mühüm rolu olmuşdur. Məhz Süleyman Rəhimovun mədəni-maarif müəssisələrinə başçılıq etdiyi dövrdə – 1945-1953-cü illərdə kitabxana işinin hərtərəfli inkişafı, xüsusilə kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana şəbəkəsinin artması, kitab fondlarının çoxalması, əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi sahəsində uğurlar qazanılmışdı. Süleyman Rəhimov eyni zamanda Kitabxanaçılıq şöbəsinin ilk müəllimlərindən biri kimi tələbələrə "Azərbaycanda kitab tarixi" fənnindən mühazirələr oxumuş, kitab mədəniyyətimizin formalaşmasına öz töhfələrini vermişdir.

Kitabxanaçılıq şöbəsinin Filologiya fakültəsinin yanında təşkil edilməsi tədris prosesinin müvəffəqiyyətli təşkilinə əlverişli şərait yaratmaqla, onun gələcək inkişafı üçün böyük perspektivlər açmasına, yüksək ixtisaslı müəllim kadrları ilə təmin edilməsinə geniş imkanlar açdı. 1950-ci illərdə respubli-ka-

mızda Kitabxanaçılıq şöbəsinin daha da inkişaf etdirilməsi üçün mühüm tədbirlər həyata keçirilməyə, bu şöbəyə tələbə qəbulunun artırılmasına ciddi fikir verilməyə başlanılmışdı. Respublikamızda ali təhsilli kitabxanaçı kadrlara olan böyük tələbat nəzərə alınaraq 1955-ci ildə Kitabxanaçılıq şöbəsinin qiyabi Azərbaycan bölməsi təşkil olundu və birinci il həmin bölməyə 12 tələbə qəbul edildi. Beləliklə, zəngin iş təcrübəsinə malik olan kitabxanaçılar istehsalatdan ayrılmadan ali ixtisas təhsili almaq imkanı qazandılar. 1959-cu ildə isə qiyabi Kitabxanaçılıq şöbəsinin rus bölməsi yaradıldı və ilk dəfə buraya 16 tələbə qəbul edildi. O dövrdə Zaqafqaziyada yeganə olan bu bölmədə digər respublikalardan gələn gənclər də yüksək kitabxanaçı-biblioqraf ixtisasının sirlərinə yiyələnməyə başladılar.

1950-ci illərdə BDU-nun filoloji fakültəsi böyük bir institutu xatırla-dırdı. Fakültədə beş şöbə: Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, kitabxanaçılıq, jurnalistika, məntiq-psixologiya və incəsənət şöbələri fəaliyyət göstərirdi. Elmi və tədris həyatı çox yüksək səviyyədə olan filologiya fakültəsində dövrümüzün ən görkəmli alimləri dərs deyirdilər. Həqiqətən elmə, təhsilə böyük maraq duyulurdu. Tələbələr elmi yenilikləri daha dərindən öyrənmək üçün səylə çalışır, müəllimlər isə daha keyfiyyətli dərs keçmək üçün sanki bir-biri ilə, sözün yaxşı mənasında, yarışa çıxırdılar.

Kitabxanaçılıq şöbəsi 1947-ci ildən 1958-ci ilədək Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərdi. Müharibədən sonrakı illərdə bu fakültənin yanında Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, Şərq dilləri və ədəbiyyatı, incəsənət, məntiq-psixologiya, jurnalistika və kitabxanaçılıq şöbələri vardı. Burada məşhur alimlərimizdən Əli Sultanlı, Cəfər Xəndan, Məmməd Cəfər, Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Muxtar Hüseynzadə, Əlövsət Abdullayev, Hadi Mirzəzadə, Cəfər Cəfərov, Əliheydər Qəhrəmanov, Bəxtiyar Vahabzadə, Pənah Xəlilov, Mehdixan Vəkilov, Abbas Zamanov və başqaları dərs deyirdilər. Yüksək ixtisasa, zəngin mənəviyyata malik olan həmin alovlu vətənpərvərlər, görkəmli şəxsiyyətlər fakültədə təmiz, saf tədris, elmi və ictimai mühit yaratmışdılar. Bu da kadr hazırlığına, elmin tərəqqisi prosesinə böyük təkan verir, tələbə gənclərin yoluna işıq salır, onların savadlı mütəxəssis, əsl vətəndaş, parlaq ziyalı kimi yetişməsi üçün təminat yaradırdı. Filologiya fakültəsi Kitabxanaçılıq şöbəsinin gələcək inkişafı, yüksək ixtisaslı kadrlar hazırlanması üçün mühüm baza rolunu oynayırdı. Filologiya fakültəsi Kitabxanaçılıq şöbəsinin gələcək inkişafı, yüksək ixtisaslı kadrlar hazırlanması üçün mühüm baza rolunu oynayırdı.

1958-ci ildə BDU-da ayrıca Şərqşünaslıq fakültəsinin yaranması qərara alınmışdı. Lakin burada təhsil alan tələbələrin sayı az olduğundan rektorluq Kitabxanaçılıq şöbəsini də müvəqqəti olaraq bu fakültənin nəzdinə verməyi





qərara almışdı. O vaxt Kitabxanaşünaslıq kafedrasının müəllimləri bu məsələyə narazılıqlarını bildirsələr də, onların etirazı nəzərə alınmadı və beləliklə, Kitabxanaçılıq şöbəsi 1958-ci ildən 1962-ci ilədək Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərdi.

Həqiqət naminə demək lazımdır ki, Filologiya fakültəsindən fərqli olaraq Şərqşünaslıq fakültəsinin profili Kitabxanaçılıq şöbəsinin profilinə uyğun gəlmədiyinə görə kitabxanaşünaslıq və biblioqrafiya elmi ilə bağlı olan məsələlər burada lazımi səviyyədə müzakirəyə çıxarıla və həll edilə bilmirdi. Bundan başqa yeni fakültədə əvvəlki ictimai mühit, yaradıcılıq atmosferi, qaynar elmi həyat yox idi.

Bu uyğunsuzluq gündən-günə hiss edildiyindən 1958-ci ildə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının baş müəllimi vəzifəsinə seçilən A.Xələfov və onun məsləkdaşları şöbədəki durğunluğu aradan aqldırmaq üçün yollar arayırdılar. Onlar müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması və ya şöbənin yenidən Filologiya fakültəsinin nəzdinə qaytarılması uğrunda mübarizəyə başlamışdılar.

Yenicə Filologiya fakültəsinin dekanı vəzifəsinə təyin edilmiş professor Əlövsət Abdullayev bu təşəbbüsü müdafiə edən xeyirxah insanlardan biri idi. O, Kitabxanaçılıq şöbəsinə tələbə qəbulunun artırılmas, ixtisasmlı kadrların hazırlanması məsələsinə böyük qayğı və diqqətlə yanaşırdı. Məhz gənc A.Xələfovun mübarizliyi və professor Ə.Abdullayevin dəstəyi ilə universitetin rektorluğu 1962-ci ilin sentyabrında Kitabxanaçılıq şöbəsinin yenidən Filologiya fakültəsinin nəzdinə qaytarılması haqqında qərar qəbul etmişdi.

1960-cı illər Azərbaycanda kitabxana işi tarixində, xüsusilə yüksək ixtisaslı, peşəkar kitabxanaçı kadrların hazırlanması tarixində xüsusi tərəqqi dövrü, yeni inkişaf mərhələsi kimi xarakterizə olunur. 1950-1960-cı illərdə Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin inkişafı sahəsində görülən işlər, kitabxana şəbəkələrinin sürətli inkişafı yüksək ixtisaslı mütəxəssis kitabxanaçı kadrların hazırlanması məsələsini ön plana çıxarmışdı. Yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanması problemi təkcə Azərbaycanda deyil, bütün SSRİ miqyasında mühüm əhəmiyyət kəsb etdiyindən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 22 sentyabr 1959-cu ildə qəbul etdiyi "Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarında yüksək ixtisaslı kitabxanaçı kadrların, xüsusilə elmi, elmi-texniki, ali məktəb kitabxanaları üçün mütəxəssis kadrların hazırlanması zəruri hesab edilmişdi. Bu qərara uyğun olaraq Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsinə ali və orta ixtisas təhsilli mütəxəssis kitabxanaçı kadrların hazırlanması işinin yaxşılaşdırılması haqqında tədbir görməyi məsləhət bilmişdi.

Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsil Komitəsi Bakı Dövlət Universitetində kitabxanaçı kadrların hazırlanması vəziyyətini yoxlayıb müzakirə etmək üçün xüsusi komissiya yaratmışdı. Komissiya universitetin Şərqşünaslıq fakültəsi yanında Kitabxanaçılıq şöbəsinin işini yoxlamış, burada tələbə kontingentinin tərkibini, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının elmi potensialını araşdırmışdı. Yoxlama zamanı məlum olmuşdu ki, son illər kafedraya gənc qüvvələr cəlb olunmuş, respublikamızda ilk dəfə olaraq kitabxana işinin tarixinə dair dissertasiya müdafiə edilmiş, kitabxanaşünaslıq üzrə elmlər namizədi yetişmişdir. Kitabxanaçılıq şöbəsinin yetirməsi Abuzər Alı oğlu Xələfov 1962-ci ildə "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1933-cü illər)" mövzusunda dissertasiya işi müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdı. Kitabxanaçılıq şöbəsinin bu göstəricilərini və elmi potensialını nəzərə alan komissiya əyani və qiyabi şöbələri birləşdirib müstəqil fakültə yaradılmasını məqsədəuyğun hesab etmişdi.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin göstərişinə əsasən 1962-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsi həmin il sentyabrın 1-dən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi nəzdindəki Kitabxanaçılıq şöbəsinin əyani və qiyabi bölmələrinin birləşdirilməsi və müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması haqqında əmr verdi. Bakı Dövlət Universitetinin rektoru, akademik Şəfaət Mehdiyevin imzaladığı əmrə əsasən 1962-ci il oktyabr ayının 1-dən universitetdə Kitabxanaçılıq fakültəsi təşkil olundu. Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının baş müəllimi, tarix elmləri namizədi Abuzər Alı oğlu Xələfov Kitabxanaçılıq fakültəsinin ilk dekanı vəzifəsinə təyin edildi.

1963-cü ildə Kitabxanaçılıq fakültəsinin axşam şöbəsi yaradıldı. Axşam şöbəsinin təşkili Bakıda və Sumqayıtda yaşayıb işləyən kitabxanaçıların ali təhsil almaları üçün əlverişli şərait yaratdı.

Eyni zamanda respublikamızın kitab ticarəti müəssisələrinin yüksək ixtisaslı mütəxəssis kitabşünas-biblioqraf kadrlara olan tələbatı nəzərə alınaraq 1963-cü ildə Kitabxanaçılıq fakültəsinin nəzdində Kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsi açıldı. Belə vacib bir şöbənin yaradılması mədəniyyətimizin mühüm sahələrindən olan kitabşünaslığın inkişafına mühüm töhfə idi. Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə 1963/1964-cü tədris ilində kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisası üzrə axşam və qiyabi şöbələrinə, 1968/1969-cu tədris ilindən isə gündüz şöbəsinə tələbə qəbulu başlandı. Respublikamızın görkəmli kitabşünasları və kitab ticarəti mütəxəssislərinin bu vacib işə cəlb edilməsi nəticəsində Kitabxanaçılıq fakültəsinin təcrübəli kollektivi bu sahədə kadr hazırlığının təşkilində mühüm nailiyyətlər qazandı. Təxminən 20 il uğurla fəaliyyət göstərən həmin şöbə, təəssüf ki, Azərittifaqda işləyən, fəqət kitab mədəniyyətindən xəbərsiz olan özündənrazı məmurların laqeydliyi ucbatından bağlandı.





1990-cı illərdə fakültənin dekanı, professor A.Xələfov yenidən yuxarı təşkilatlara müraciət edərək, "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisasına böyük tələbat olduğunu əsaslandırmaqla həmin şöbənin bərpasına çalışdı. Bu məsələnin müsbət həllində Azərbaycan Nazirlər Soveti yanında Dövlət Mətbuat Komitəsinin sədri, tanınmış jurnalist Rəşid Mahmudovun xüsusi rolu oldu. Belə ki, məhz onun yaxından köməyi sayəsində respublika hökuməti bu barədə müsbət qərar çıxardı.

Beləliklə, professor A.Xələfovun uzun illər ərzində apardığı gərgin mübarizə 1991/1992-ci tədris ilində öz bəhrəsini verdi. Hazırda fakültədə Kitabşünaslıq və Nəşriyyat işi kafedrası uğurla fəaliyyət göstərir.

Ümumiyyətlə, 25 ilə qədər dekan vəzifəsində işləyən professor A.Xələfov özünün təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə təkcə universitetimizdə deyil, habelə respublika və Sovetlər Birliyi miqyasında böyük nüfuz qazanmış, yüksək ixtisaslı milli kitabxanaşünaslıq-biblioqraf kadrların hazırlanması istiqamətində səmərəli iş aparmışdır. Kitabxanaçılıq fakültəsinin yeni tədris planının yaradılmasında, kafedra və laboratoriyaların maddi-texniki bazalarının yaxşı-laşdırılmasında, dərslərin keyfiyyətinin yüksəldilməsində, kadrların düzgün seçilib yerləşdirilməsində professor A.Xələfovun xüsusi rolu olmuşdur.

1970-ci illərdə fakültənin əldə etdiyi ən böyük nailiyyətlərdən biri də yeni beşillik universitet tədris planı ilə işləməyə başlaması olmuşdur. ABŞ-ın kitabxanaçılıq ali məktəblərinin tədris planının əsas konsepsiyasına müvafiq olaraq 1970-ci ildə Vilnüs Universiteti üçün təsdiq edilmiş fərdi tədris planı fakültə rəhbərliyinin səyi nəticəsində müstəsna hal kimi SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin icazəsi ilə Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsində tətbiq edildi. Fakültənin gələcək inkişafı üçün böyük perspektivlər açan bu tədris planının tətbiqi kitabxanaçılıq-informasiya fakültəsini keçmiş SSRİ məkanında dünya standartlarına cavab verən fakültəyə çevrilməsinə şərait yaratdı. Yeni tədris planının əsas istiqamətləri 1980-ci illərdən başlayaraq SSRİ-nin bütün ali kitabxanaçılıq məktəblərində tətbiq edilməyə başlandı. Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində isə bu planın 1970-ci illərdən tətbiq edilməyə başlanmasını kollektivin uğuru kimi qiymətləndirmək olar.

Kitabxanaçılıq fakültəsinin 1970-ci illərdəki nailiyyətləri də diqqətəlayiq olmuşdur. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə əlaqədar respublikada yaranmış işgüzar ab-hava, böyük və sürətli inkişaf Bakı Dövlət Universitetinin fəaliyyətinə də təkan vermişdi. Ulu öndərin kitabxana işinə böyük qaygı-

sının təzahürü olaraq, Azərbaycanın kənd rayonları üçün kitabxanaçı kadrlar hazırlamaq məqsədilə müsabiqədənkənar qəbul planı müəyyənləşdirildi. Bu plana müvafiq olaraq hər il kənd rayonlarından fakültəyə 50-60 nəfər gənc qəbul edilirdi. Böyük əhəmiyyət kəsb edən bu tədbir o dövrdə kənd kitabxanalarını yüksək ixtisaslı kadrlarla təmin etmək üçün əlverişli şərait yaratdı.

1970-ci ildən Bakı Dövlət Universitetinin Elmi əsərlərinin "Kitabxanaşünaslıq və biblioqrafiya" seriyası nəşrə başlamış, ildə 3 nömrəsi çap edilən bu seriya Zaqafqaziya və Orta Asiya respublikaları içərisində yeganə elmi əsərlər kimi böyük nüfuz qazanmışdı. Bu seriyada BDU-nun professor-müəllim heyəti ilə yanaşı, SSRİ-nin digər respublikalarının müvafiq sahədə fəaliyyət göstərən tanınmış mütəxəssislərinin məqalələri də dərc edilirdi.

1970-1980-ci illərdə kitabxanaçılıq fakültəsində elmi kadrların yetişdirilməsi sahəsində də ciddi nailiyyətlər əldə edildi. Bu zaman artıq kitabxana işinin müvafiq sahələrinə dair 1 doktorluq dissertasiyası, 10 namizədlik dissertasiyası müdafiə edilmiş, elmi dərəcəsi olan mütəxəssislərin sayı çoxalmışdı.

Hələ XX əsrin 70-80-ci illərində Kitabxanaçılıq fakültəsi Sovet İttifaqı miqyasında aparıcı yer tuturdu. Buna görə də SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi ölkədəki ali məktəblərin Kitabxanaçılıq fakültələri üçün tədris proqramlarını hazırlayıb tərtib etməyi məhz Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin rəhbərliyindən xahiş etmişdi. Elə bunun məntiqi nəticəsidir ki, professor A.Xələfovun rəhbərliyi ilə hazırlanan, onun bu sahədəki ideya və təkliflərini özündə təcrübi şəkildə əks etdirən, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində beşillik təhsil müddəti üçün nəzərdə tutulan fərdi tədris planı 1984-cü ildə ittifaq nazirliyi tərəfindən təsdiq edilir və böyük uğurla həyata keçirilməyə başlayır.

1947-ci ilin oktyabr ayında Bakı Dövlət Universitetində yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlığına başlanılması Kitabxanaçılıq şöbəsində ixtisas fənlərindən dərs deyə biləcək müəllimlərin və ixtisas kafedrasının (və ya kafedralarının) qısa bir zamanda müəyyənləşdirilməsini tələb edirdi. Belə ki, ali məktəblərdə yüksək ixtisaslı kadr hazırlığı prosesi bilavasitə kafedraların fəaliyyəti ilə bağlıdır. Məhz tədris prosesinə rəhbərlik edən və bilavasitə tədrisin təşkilini həyata keçirən kafedralar yüksək ixtisaslı mütəxəssislərlə komplektləşdirildiyi təqdirdə müasir tələblərə cavab verən kadr hazırlığından danışmaq olar. Digər tərəfdən, kafedralar tədris prosesini təşkil etməklə yanaşı, ali məktəb üçün elmi-pedaqoji kadrların hazırlanması ilə də məşğul olur.

Elə bu baxımdan qarşıda duran vəzifələri məqsədyönlü şəkildə həll etmək məqsədi ilə həmin il universitetin Filologiya fakültəsi nəzdində təşkil edilmiş Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası ixtisas fənlərinə dair əsaslı elmi tədqiqat işləri aparmaq üçün geniş imkanlar yaratdı.





Yeri gəlmişkən, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranmasında və fəaliyyətə başlamasında görkəmli yazıçı Süleyman Rəhimovun böyük rolu olmuşdur. Belə ki, həmin dövrdə ixtisas üzrə elmi ada və elmi dərəcəyə malik mütəxəssislər olmadığına görə kafedranın təşkilində ciddi çətinliklər meydana çıxmışdı. Süleyman Rəhimov qısa müddətdə universitetin rəhbərliyi ilə birlikdə bu məsələni yoluna qoymağı, təzə yaradılan kafedraya təcrübəli kadrları seçib dəvət etməyi və beləliklə, tarixi bir iş görərək bu elmi qurumun fəaliyyətinə təkan verməyi bacardılar.

Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranması Azərbaycan kitabxanaşünaslığı və biblioqrafiyaşünaslığı tarixində çox mühüm hadisə idi. İlk elmi özək olmaq etibarilə bu kafedra Kitabxanaçılıq şöbəsinin yüksək ixtisaslı müəllim kadrları ilə təmini, ilk elmi mühazirələrin oxunmasının təşkili, fənn proqramlarının tərtibi, dərs vəsaitlərinin, elmi məqalələrin yazılması və müzakirəsi işində mühüm rol oynadı. Respublikamızda kitabxanaşünaslıq və biblioqrafiya elmlərinə dair ilk sanballı elmi tədqiqatların aparılmaı üçün şərait yarandı. Məhz bu kafedranın fəaliyyəti nəticəsində Azərbaycan kitabxanaşünaslığının bünövrəsinə ilk daşlar qoyulmağa başladı. Əgər belə bir fikir söyləsək ki, Azərbaycanda kitabxa-naşünaslığın və biblioqrafiyaşünaslığın əsaslı şəkildə elmi tədqiqinə və öyrənilməsinə bu kafedranın fəaliyyəti ilə başlanılmışdır, səhv etmiş olmarıq. Bu fikri söyləməklə XX əsrin birinci yarısında Azərbaycanda bu sahədə görülmüş işlərin, aparılmış tədqiqatların üzərinə kölgə salmaq niyyətində deyilik. Burada söhbət ümumi araşdırmalardan yox, sanballı elmi tədqiqatlardan gedir. Məhz buna görə də Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın təşəkkül tapıb formalaşması və inkişaf etdirilməsi bu kafedranın fəaliyyəti ilə bağlı olmuşdur.

Beləliklə, 1947-ci ildə fəaliyyətə başlayan Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının ilk müdiri vəzifəsinə görkəmli biblioqraf Əliheydər Qəhrəmanov təyin edilmişdir. O, uzun illər Bakının kütləvi kitabxanalarında kitabxanaçı və kitabxana müdiri işləmiş, bir müddət Bakı Kitabxanaçılıq Texnikumunda müəllim, sonra direktor vəzifələrində çalışmışdı. Universitetə kafedra müdiri vəzifəsinə dəvət olunarkən isə Respublika Dövlət Kitab Palatasının direktoru idi.

İxtisasca filoloq olan Ə.Qəhrəmanov kitabxanaşünaslıq və biblioqrafiyanı sevən, ali kitabxanaçılıq təhsilinin inkişafına ürəkdən xidmət edən bir alim idi. O, 1955-ci ildə "Rus-Azərbaycan ədəbi əlaqələri" mövzusunda dissertasiya işini Bakı Dövlət Universitetinin Elmi Şurasında müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdı.

Artıq ilk vaxtlar Əliheydər Qəhrəmanovla yanaşı, pedaqoji institutu bitirərək uzun illər Bakı şəhərinin kütləvi kitabxanalarında çalışan, daha sonra M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının direktoru vəzifəsində

işləyən Hüseyn Tağıyev, həmin kitabxananın elmi işlər üzrə direktor müavini Məryəmxanım Səmədova Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının ilk ixtisas müəllimləri kimi fəaliyyətə başlamışdılar. Bir qədər sonra isə kafedra artıq Kitabxanaçılıq şöbəsinin gənc məzunları hesabına genişlənirdi.

Belə bir cəhəti qeyd etmək yerinə düşər ki, 1954-1958-ci illərdə Bakı Dövlət Universitetinin rektoru vəzifəsində işləmiş dünya şöhrətli alim, görkəmli elm və təhsil təşkilatçısı, elmimizin böyük korifeylərindən biri, Azərbaycan elmini beynəlxalq miqyasda şərəflə təmsil edən akademik Yusif Məmmədəliyev kitabxanaçı kadrların hazırlanmasına, kitab və kitabxana işinə yüksək diqqət yetirir, Kitabxanaçılıq şöbəsinə qəbulun ilbəil artırılmasına çalışırdı. O, həmçinin Kitabxanaçılıq şöbəsində işləyən müəllimlərlə, onların elmi-pedaqoji fəaliyyəti ilə maraqlanır, gənc kadrların Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında saxlanılmasını lazım bilirdi. Məsələn, sonralar Azərbaycan ali kitabxanaçılıq təhsilinin, milli kitabxanaşünaslığın inkişafında xüsusi xidmətləri olan Abuzər Xələfov 1955-ci ildə universiteti müvəffəqiyyətlə bitirdikdən sonra böyük çətinliklə da olsa Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim saxlanılmışdı. Abuzər Xələfov Kitabxanaçılıq şöbəsinin kafedrada müəllim saxlanılan ilk məzunudur. Sonrakı illərdə bu ənənə davam etdirilmiş, 1956-cı ildən Murad Şəmsizadə, 1959-cu ildə Hacı Həsənov, Əşrəf Xələfov, Zöhrab Əliyev və başqaları burada müəllim işləməyə başlamışlar.

Gənc mütəxəssislərin Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına cəlb olunması elmi tədqiqat işini xeyli canlandırmışdı. A.Xələfov 1960-cı illərin əvvəllərində bu istiqamətdə ilk alim kimi yeni elmi cığır açmışdı. Kafedrada ciddi araşdırmalar aparılmağa, kitabxana işi ilə bağlı ilk dissertasiya işləri yazılmağa, elmi məqalələr, proqramlar, metodik göstərişlər, dərs vəsaitləri və monoqrafiyalar hazırlanıb çap etdirilməyə başlanmışdı.

1959-cu ildə Əliheydər Qəhrəmanov vəfat edəndən sonra kitabxanaçılıq ixtisasından tamamilə uzaq olan bir şəxs – fars dili kafedrasının dosenti, filologiya elmləri namizədi Həsən Əlizadə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına müdirtəyin edilmiş, 1963-cü ilə qədər bu vəzifəni tutmuşdur.

1963-cü ildə isə Kitabxanaçılıq fakültəsinin dekanı, tarix elmləri namizədi, baş müəllim A.Xələfov eyni zamanda Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının müdiri vəzifəsinə seçildi. Artıq bu dövrdən sonra o, paralel olaraq dekanlığın və kafedranın işinə nəzarət etməli, onların fəaliyyətini əlaqə-ləndirməli və istiqamətləndirməli, başqa sözlə, idarəetmə funksiyası ilə elmi təd-qiqatçılıq prosesini bir-biri ilə sıx şəkildə uzlaşdırmalı olur ki, bu da həm fakültənin, həm də kafedranın müasir elmi əsaslar üzərində düzgün istiqamətdə inkişafına ciddi kömək göstərir.

Bu dövrdən başlayaraq Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının əməkdaşları əsasən kitabxana işinin tarixi, kitabxanaşünaslığın nəzəriyyəsi,





təşkili və metodik məsələləri, oxuculara kitabxana-informasiya xidmətinin mühüm problemləri istiqamətində elmi tədqiqatlar aparır, eyni zamanda kitabxana proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması sahəsində uğurlu nəticələr qazanmağa çalışırdılar.

O dövrdə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası respublikamızda cəmiyyətin informasiya təminatı sistemində mühüm yer tutan sosial institutlar içərisində kitabxanaların yerini müəyyən etmək, kitabxana işinin inkişaf meyl və qanunauyğunluqlarını tədqiq etmək və ümumiləşdirmək, informasiya-axtarış sistemlərinin vəziyyətini və onların optimallaşdırılması yollarını, ölkəmizdə kitabxana quruculuğunun aktual problemlərini öyrənmək baxımından bir çox nailiyyətlər qazanmışdır.

1960-1970-ci illərdə Kitabxanaşünaslıq kafedrasının elmi-pedaqoji tərkibi xeyli təkmilləşmiş, istiehsalatda müəyyən təcrübə qazanan bacarıqlı mütəxəssislərdən Tacəddin Quliyev, Mayıl Həsənov, Elman Bədəlov, Sahib Rzayev, Əli Rüstəmov, Rasim Kazımov, Xəlil Ismayılov, Zöhrab Baxşəliyev, Almaz Abbasova, Kəmalə Şeyxzamanova, Sənubər Mustafayeva, Aşur Əliyev və başqaları burada işə başlamışdılar.

1980-1990-cı illərdə isə BDU-nun Kitabxanaçılıq fakültəsini müvəffəqiyyətlə bitirmiş və kitabxanaşünas-biblioqraf ixtisasına yiyələnmiş perspektivli kadrlardan Akif Cəfərov, Murtuz Bağırov, Namiq İsmixanov, Telman Alıyev, Pərviz Kazımi, Mehmanəli Məmmədov, Knyaz Aslan, Elçin Əhmədov Kitabxanaşünaslıq kafedrasına dəvət olundular və ya təyinat aldılar. Onlardan çoxu bu gün də elmi-pedaqoji fəaliyyətlərini burada uğurla davam etd-irirlər.

Kitabxanaşünaslıq kafedrasının əməkdaşlarının apardıqları elmi tədqiqat işlərinin mühüm nəticələri Bakı Dövlət Universitetinin elmi əsərlərində, fakültədə nəşr olunan elmi-nəzəri və təcrübi-metodik jurnallarda, respublikamızda çıxan müxtəlif elmi-kütləvi nəşrlərdə və digər mətbuat orqanlarında dərc olunur. Bununla yanaşı, kitabxanaşünas mütəxəssislər öz elmi-tədqiqat işlərinin yekunları ilə bağlı elmi-nəzəri və təcrübi konfranslarda məruzələr oxuyur, çıxışlar edir və onları geniş kitabxana ictimaiyyətinin müzakirəsinə verirlər. Bu isə Azərbaycanın müstəqilliyi şəraitində gələcək müvəffəqiyyətlər üçün əsaslı zəmin yaradır.

1960-cı illərdə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının əməkdaşları kitabxanaşünaslıq elmlərinə dair elmi-tədqiqatlar aparılması sahəsində də mühüm elmi nailiyyətlər əldə etmiş, kafedrada elmi mühit yaratmağa müvəffəq olmuşlar. Kafedranın 6 nəfər üzvü namizədlik dissertasiyası müdafiə etmişdir.

Qeyd etdiyimiz kimi, 1962-ci ildə Kitabxanaçılıq şöbəsinin yetirməsi, kafedrada kitabxanaşünaslıq üzrə ilk yüksək ixtisaslı mütəxəssis Abuzər Xələfov Azərbaycan EA-nın Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru,

professor Zülfəli İbrahimovun elmi rəhbərliyi ilə akademiyanın Tarix İnstitutunun Elmi Şurasında "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1933-cü illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi aldı. Azərbaycanda kitabxana işinin tarixinə dair ilk elmi tədqiqat işinin yazılıb müdafiə edilməsi ilə respublikamızda kitabxanaşünaslıq elmi məktəbinin əsası qoyuldu. Respublikamızın görkəmli alimləri tərəfindən yüksək qiymətləndirilən bu dissertasiya Azərbaycan kitabxanaşünaslıq elmi məktəbinin bünövrəsinə qoyulan qiymətli elmi iş kimi gələcək elmi tədqiqatların inkişafı üçün zəmin yaratdı, elmi-metodoloji rol oynadı. Dissertasiya işinin müəllifi isə inkişaf etməkdə olan kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısına çevrildi, kitabxanaşünaslıq elminin banisi kimi şöhrətləndi.

Ötən illərdə Kitabxanaşünaslıq kafedrası üzrə aparılan tədqiqatlar nəticəsində qədim dövrdən zəmanəmizə qədər Azərbaycanda kitabxana işinin tarixi kompleks şəkildə öyrənilmişdir. Eyni zamanda ayrı-ayrı sahəvi kitabxanaların yaranması, inkişaf mərhələləri, müxtəlif regionlarda kitabxana işinin tarixi və təşkili məsələləri, müxtəlif kitabxana proseslərinin təşəkkülü və inkişaf qanunauyğunluqları, müstəqil tədqiqat işlərinin obyektinə çevrilmişdir. Azərbaycanda kitabxanaşünaslıq üzrə elmi-tədqiqat işlərinin təşkili və istiqamətləndirilməsi sahəsində Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun xüsusi xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə son 60 ildə Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbi formalaşmışdır.

1960-cı illərdə kafedranın müəllim kontingentinin artması, dərs yükünün çoxalması, ixtisas üzrə ilk elmlər namizədlərinin yetişməsi müstəqil Biblioqrafiyaşünaslıq kafedrası yaratmağa imkan verirdi. Odur ki, dekan A.Xələfovun təşəbbüsü ilə universitetin rektorluğu Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi qarşısında bu barədə məsələ qaldırdı və müsbət cavab aldı.

1968-ci ildə təşkil edilən Biblioqrafiyaşünaslıq kafedrasının ilk müdiri vəzifəsinə pedaqoji elmlər namizədi, dosent Əşrəf Xələfov seçildi. Bu kafedranın təşkili biblioqrafiya fənlərinin tədrisini, elmi tədqiqat və metodik işləri xeyli yaxşılaşdırdı, yeni tədris vəsaitlərinin və metodik göstərişlərin meydana çıxmasına səbəb oldu.

Kafedranın əməkdaşlarından Bayram Allahverdiyev 1968-ci ildə "Orta əsr Azərbaycan kitabı (XI-XVIII)", Fərman Bayramov isə 1970-ci ildə "Cəlil Məmmədquluzadə ədəbi irsinin nəşri tarixi və yazıçının biblioqrafiyası" mövzularında namizədlik dissertasiyaları müdafiə etdilər.

1970-1980-ci illərdə Biblioqrafiyaşünaslıq kafedrasının kadr tərkibi xeyli yeniləşmiş, burada professor Bayram Allahverdiyev, dosentlər Əşrəf Xələfov, Hacı Həsənov, Fərman Bayramovla yanaşı, baş müəllimlər Rasim Süleymanov, Nadir Ismayılov, Akif Əsədullayev, Raifə Vəzirova, Qəmzə Hacıyeva,





Elmira Ağayeva və başqaları ixtisas fənlərindən mühazirə və məşğələlər aparmağa, həmçinin biblioqrafiyaşünaslığın aktual mövzularına dair elmi tədqiqat işləri yazmağa başlamışdılar.

1987-ci ildə aspirant Nadir İsmayılov "Təbabət üzrə məhəlli kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları (Azərbaycan SSR-in materialları əsasında)" mövzusunda yazdığı dissertasiya işini Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin İxtisaslaşdırılmış Şurasında müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. Profes-sor Z.Əliyevin elmi rəhbərliyi ilə yazılmış bu tədqiqat işində respublikamızda təbabət üzrə biblioqrafik ehtiyatın formalaşması, yerləşməsi və səmərəli istifadə yolları kompleks şəkildə tədqiq edilmişdir.

Biblioqrafiya kafedrasının aspirantı Rasim Süleymanov isə dosent Hacı Həsənovun rəhbərliyi ilə kitabşünaslıq üzrə tədqiqat aparmış və "Rus bədii ədəbiyyatının Azərbaycanda nəşri məsələləri (1920-1970-ci illər)" mövzusunda namizədlik dissertasiyasını 1991-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Rus Dili və Ədəbiyyatı İnstitutunun Ixtisaslaşdırılmış elmi şurasında müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1980-1990-cı illərdə və sonrakı dövrdə Biblioqrafiyaşünaslıq kafedrasının elmi-pedaqoji və laborant-texniki işçi heyətinin tərkibinə yeni əməkdaşlar cəlb olunmuş, Əliyusif Məmmədov, Sima İsmayılova, Solmaz Sadıqova, Xuraman Verdiyeva və başqa təcrübəli kitabxanaşünas-biblioqraf kadrlar fəaliyyət göstərməyə başlamışlar.

Qeyd edək ki, Biblioqrafiyaşünaslıq kafedrasına 1968-1978-ci illərdə pedaqoji elmlər namizədi, dosent Əşrəf Xələfov, 1978-1983-cü illərdə isə tarix elmləri namizədi, dosent Hacı Həsənov, 1983-2002-ci illərdə Əməkdar mədəniyyət işçisi, pedaqoji elmlər namizədi, professor Zöhrab Əliyev rəhbərlik etmişlər. 2012-ci ildən indiyə qədər isə kafedra müdiri pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılovdur.

Otən illərdə Biblioqrafiyaşünaslıq kafedrasında əməkdaşların sayı artmış, dissertasiyalar müdafiə edilmiş, dərsliklər, dərs vəsaitləri, elmi məqalələr yazılmışdır. Azərbaycanın müstəqilliyi dövründə Kitabxanaçılıq-informasiya fakültəsinin strukturunda mühüm yerlərdən birini tutan Biblioqrafiyaşünaslıq kafedrası bu elmi istiqamətin müasir şəraitə uüğün şəkildə inkişafı, təkmilləşməsi üçün zəruri işlər yerinə yetirir, aktual elmi tədqiqatların aparılmasını təşkil edir.

Kafedranın əsas elmi tədqiqat istiqaməti respublikamızda biblioqrafik fəaliyyətin tarixi, nəzəriyyəsi, metodikası və idarə olunması, real biblioqrafik informasiya tələbatını öyrənmək əsasında mövcud biblioqrafik sərvətdən səmərəli istifadə yollarının tədqiq edilməsi və s. kimi aktual problemlərdən ibarətdir.

XX əsrin 90-cı illərində Kitabxanaçılıq fakültəsində elmi dərəcəsi olan müəllimlərin, mütəxəssis kadrların sayca çoxalması yeni kafedraların açılmasına şərait yaradırdı. Buna görə də professor A.Xələfov universitet rəhbərliyinə müraciət edərək Kitabxanaşünaslıq kafedrasının bazası əsasında yeni bir kafedranın təşkil edilməsi barədə məsələ qaldırdı. Rektorluq həmin məsələyə müsbət münasibətini bildirdi və universitet Elmi Şurasının qərarı ilə 1991/1992-ci tədris ilində Kitabxana fondu və kataloqların təşkili kafedrası yaradıldı və fəaliyyətə başladı.

Dosentlər Elman Bədəlov, Almaz Abbasova, Mayıl Həsənov, Aşur Əliyev, baş müəllimlər Kəmalə Şeyxzamanova, Sənubər Mustafayeva "Kitabxana kataloqları", "Kitabxana fondu", "Çap əsərlərinin təsnifləşdirilməsi və təsviri", "Kitabxana təsnifatları" və s. fənlərdən mühazirə və məşğələlər aparmaqla yanaşı, bu istiqamətdə elmi tədqiqatlar aparmağa, araşdırmalarının nəticələrini elmi-nəzəri jurnallarda dərc etdirməyə başladılar.

Yeni kafedranın ilk müdiri vəzifəsinə tarix elmləri namizədi, dosent Tacəddin Quliyev seçildi və o, ömrünün sonuna – 2005-ci ilin oktyabrına qədər həmin vəzifəni uğurla yerinə yetirdi. Həmin ildən kafedra müdiri vəzifəsində professor Xəlil İsmayılov çalışır.

Kitabxana fondu və kataloqların təşkili kafedrası dövrün tələbləri ilə əlaqədar olaraq sonrakı illərdə "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrası adlandırıldı. Kafedranın əsas elmi tədqiqat istiqaməti respublikamızda kitabxana fondlarının formalaşması, kitabxanaların informasiya-axtarış sistemlərinin inkişafı, müasir vəziyyəti və s. kimi aktual problemlərin hərtərəfli şəkildə araşdırılmasından ibarətdir.

Kafedra əməkdaşları eyni zamanda çap əsərlərini və digər sənədləri kitabxanaların vəzifələrinə, tiplərinə və profillərinə uyğun olaraq oxucuların məqsədyönlü istifaldəsi üçün sistemləşdirilmiş qaydada təşkil edən və müəyyən dövr ərzində qoruyub saxlayan kitabxana fondunun, bununla yanaşı, oxuculara lazım olan kitabı seçməkdə, onların mütaliəsini istiqamətləndirməkdə mühüm rol oynayan kitab fondunun tərkibini dəqiq əks etdirən kitabxana kataloqlarının inkişaf tarixi, formalaşması, müasir vəziyyəti və təkmilləşdirilməsi problemləri ilə bağlı sanballı elmi tədqiqatlar aparırlar. Məhz bu araşdırmalar nəticəsində son zamanlar kafedra üzrə bir sıra proqramlar, dərs vəsaitləri, tədris-metodik vəsaitlər və başqa materiallar nəşr edilmişdir.

Qeyd etdiyimiz kimi, 1992-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, professor A.Xələfovun ciddi səyi nəticəsində 1960-1970-ci illərdə fəaliyyət göstərmiş, lakin 1980-ci illərdə səhvən bağlanmış Kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsini yenidən bərpa etməyə, bu ixtisas üzrə əyani və qiyabi bölmələrə tələbə qəbulu aparmağa razılıq verildi.





Kitabşünaslıq və kitab ticarətinin təşkili kafedrasınını ilk müdiri vəzifəsinə kitabşünaslıq sahəsində namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş tarix elmləri doktoru, professor Bayram Allahverdiyev seçildi.

Müstəqillik illərində Kitabşünaslıq və Nəşriyyat işi adlanan kafedranın elmi-pedaqoji tərkibi xeyli genişlənmiş, buraya yeni kadrlar cəlb olunmuşdur. Əgər yeni yaradılan ilk illərdə burada professor Bayram Allahverdiyevlə yanaşı, Hacı Həsənov, Rasim Süleymanov kimi kitabşünas mütəxəssislər elmi-pedaqoji fəaliyyətlə məşğul olurdularsa, sonrakı illərdə nəşriyyat-redaksiya sistemində çalışan digər səriştəli kadrlar da bu kafedraya dəvət olunmağa başlamışdılar. Belə ki, 1990-2000-ci illərdən filologiya elmləri doktoru, professor İsmayıl Vəliyev, pedaqoji elmlər namizədi, dosent Nailə Mehrəliyeva, pedaqoji elmlər namizədi, dosent Mehmanəli Məmmədov, pedaqoji elmlər namizədi, dosent Knyaz Aslan, filologiya elmləri namizədi, dosent Şəhla Quliyeva, baş müəllim Ramiz Həmidov və başqaları kimi təcrübəli mütəxəssislər bakalavr və magistr pillələrində ixtisas fənləri üzrə mühazirələr oxuyur, seminar məşğələləri aparır, həmçinin bu istiqamətdə səmərəli elmi tədqiqat işləri aparırdılar.

Bu dövrdə kafedranın əməkdaşlarından professor B.Allahverdiyevin "Ümumi kitab tarixi", professor İ.Vəliyevin "Ədəbi-bədii və uşaq kitablarının redaktəsi", "Redaksiya-nəşriyyat işinin əsasları", "Redaktənin əsasları" və başqa kitablar çapdan çıxmışdı.

Respublikamızın müstəqilliyi şəraitində Kitabşünaslıq və nəşriyyat işi kafedrasının əsas elmi tədqiqat istiqamətini Azərbaycan kitabının inkişaf mərhələləri, ölkədə kitab nəşri konsepsiyasının hazır-lanması, müxtəlif ədəbiyyat növlərinin nəşrinin öyrənilməsi və ümumiləşdirilməsi, müasir vəziyyəti və perspektivlərinin tədqiqi, redaksiya-nəşriyyat işinin təşkili, kitaba ictimai tələbat və onun ödənilməsinin optimal yollarının müəyyənləşdirilməsi və s. kimi aktual problemlər təşkil edir.

Kitabşünaslıq və nəşriyyat işi kafedrasının elmi-tədqiqat istiqaməti Azərbaycan kitab mədəniyyətinin tarixi və müasir vəziyyətinin öyrənilməsi, nəşriyyat işinin təşkili məsələlərinin tədqiq edilməsidir. 2012-ci ildən Kitabşünaslıq və Nəşriyyat işi kafedrasına rəhbərlik edən dosent Knyaz Aslanın başçılığı ilə kafedranın elmi-pedaqoji heyəti hazırda kitabşünaslığın və nəşriyyat işinin müxtəlif sahələri ilə bağlı ciddi araşdırmalar aparır, elmi məqalələr, proqramlar, dərs vəsaitləri, monoqrafiyalar və s. yazıb nəşr etdirirlər. Bu istiqamətdə aparılan tədqiqatlarda kafedra müdiri, dosent Knyaz Aslanın fəaliyyəti diqqəti cəlb edir. Onun yaradıcılığında dünya və Azərbaycanda əlyazma və çap kitablarının inkişaf xüsusiyyətləri, kitab nəşri və redaktə problemləri, ənənəvi və elektron nəşriyytların inkişafı və s. kimi aktual mövzular mühüm yer tutur. Bundan başqa, indiyə qədər kafedranın əməkdaşlarından professor

B.Allahverdiyev, professor İ.Vəliyev, dosent R.Süleymanov, dosent N.Mehrəliyeva, dosent Ş.Quliyeva, dosent Ə.Bayramov, fəlsəfə doktoru L.Abasova və başqaları kitabçılıq işi və nəşriyyat-poliqrafiya sahəsinə dair bir sıra əsərlər yazıb dərc etdirmişlər.

Kitabxanaçılıq-informasiya fakültəsinin nəzdində yaradılmış inkişaf etmiş və formalaşmış bu dörd kafedranın tarixi və fəaliyyəti haqqında bu yığcam məlumat bir daha sübut edir ki, ötən 70 il Azərbaycanda yüksək ixtisaslı kitabxanaşünas-biblioqrafların hazırlanmasında, bu prosesi təşkil edən elmi-pedaqoji kadrların seçilib yerləşdirilməsində xüsusi mərhələ olmuşdur. Bu dövrdə istər mütəxəssis hazırlığı, istərsə də professor-müəllim heyətinin tərkibi həm kəmiyyət, həm də keyfiyyətcə yüksələn xətlə inkişaf edib təkmilləşmişdir. Eyni zamanda elmi tədqiqat işləri məzmun və mahiyyət baxımından xeyli yaxşılaşdırılmış, əsaslı problemlər tədqiqata cəlb edilmiş, cəmiyyətdə mühüm mövqeyə malik olan kitabxana və biblioqrafiya işinin əhəmiyyətinə dövlət səviyyəsində qayğı göstərilməyə başlanmışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, XX əsrin 70-80-ci illərində kitabxanaçılıq fakültəsinin həyatında yeni mərhələ başlandı. Belə ki, BDU-nun tarix fakültəsinin Elmi Şurasında Kitabxanaçılıq fakültəsinin dekanı Abuzər Xələfov 05.25.03 - Kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə “Azərbaycanda kitabxana işinin tarixi (1933-1969-cu illər)” mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi. Bu müdafiə RSFSR-dən sonra kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə müttəfiq respublikalarda müdafiə edilən ilk doktorluq dissertasiyası idi.

Bununla yanaşı, 1970-1980-ci illərdə Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin beynəlxalq əlaqələri xeyli genişlənmiş, bir çox müttəfiq respublikalarla qarşılıqlı elmi əlaqələr yaradılmışdı. Fakültə bir sıra beynəlxalq elmi konfransların, seminarların, metodik müşavirələrin keçirildiyi elmi-metodiki bazaya çevrilmişdi. Bu dövrdə respublikamızda ali kitabxanaçılıq təhsilinin inkişafı sahəsində olduqca böyük uğurlar əldə edilmişdi. BDU-nun Kitabxanaçılıq fakültəsi SSRİ-nin ən qabaqcıl fakültələrindən biri hesab edilirdi.

Professor Abuzər Xələfov o dövrdə SSRİ-də kitabxanaçılıq-biblioqrafiya təhsili üzrə elmi-metodiki şuranın üzvü, SSRİ Dövlət Kitabxanasında fəaliyyət göstərən Doktorluq dissertasiyası üzrə ixtisaslaşmış Müdafiə Şurasının üzvü, SSRİ Ali Attestasiya Komissiyasının eksperti idi. Fakültədə hələ RSFSR ali məktəblərində tətbiq edilməyən, Amerika və Avropa ölkələrinin kitabxanaçılıq fakültəsinin tədris planlarına müvafiq olaraq Vilnüs Dövlət Universitetinin kitabxanaçılıq-biblioqrafiya ixtisası üzrə beşillik tədris planı əsasında yeni tədris planı tərtib edilmişdi. Fakültə kitabxanaşünaslıq-biblioqrafiya elmləri üzrə Bakı Dövlət Universiteti Elmi əsərlərinin xüsusi seriyasını nəşr edirdi. SSRİ miqyasında Moskva Dövlət Mədəniyyət İnstitutunun “Kitabxanaşünaslıq və biblioqrafiya” ixtisası üzrə Müdafiə Şurası müdafiəyə təqdim edilmiş çoxlu sayda namizədlik və doktorluq dissertasiyalarını ekspertiza etmək üçün aparıcı müəssisə kimi BDU-nun Kitabxanaçılıq fakültəsinin Kitabxanaşünaslıq kafedrasına göndərirdi. Fakültənin dekanı, tarix elmləri doktoru, professor A.Xələfov Moskva Dövlət Mədəniyyət İnstitutunda bir çox doktorluq və namizədlik dissertasiyalarının rəsmi opponenti olmuşdu. O, eyni zamanda Tbilisidə, Daşkənddə və başqa şəhərlərdə doktorluq dissertasiyalarının rəsmi opponenti kimi də çıxış etmişdi.





Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin təhsil və elmi-tədqiqat işləri sahəsindəki uğurları SSRİ miqyasında qiymətləndirilirdi. Məhz buna görədir ki, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin “Kitabxanaşünaslıq-biblioqrafiya” təhsili üzrə Elmi-Metodiki Şurası Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin iş təcrübəsini öyrənmək üçün öz növbəti iclasını 1981-ci il oktyabrın 28-30-da Bakı şəhərində keçirdi. Elmi-metodik şuranın iclasında SSRİ-nin kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə ən görkəmli alimləri və təhsil təşkilatçıları, müttəfiq respublikaların yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf hazırlayan bütün ali məktəblərindən gəlmiş görkəmli alimlər, rektorlar, dekanlar, kafedra müdirləri iştirak edirdilər. Elmi-Metodik Şuranın qərarında Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin fəaliyyəti yüksək qiymətləndirilmişdi.

1980-ci illərdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi SSRİ miqyasında tədris planlarının hazırlanması sahəsində diqqətəlayiq uğurlar qazanmışdı. Fakültə kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə strateji əhəmiyyətə malik, XXI əsrdə belə tədris planlarının baza hissəsi kimi istifadə edilən tədris planlarının hazırlanmasında mərkəzə çevrilmişdi.

1988-ci ildə SSRİ Dövlət Xalq Təhsil Komitəsinin göstərişi ilə SSRİ Mədəniyyət Nazirliyinin yanında fəaliyyət göstərən kitabxanaçılıq təhsili üzrə tədris-metodiki şurası ilə razılaşdırılmış və təsdiq edilmiş nümunəvi tədris planı əsasında işlənmiş yeni tədris planı tərtib etmək nəzərdə tutulmuşdu. SSRİ-də yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf kadrlar hazırlayan dövlət universitetləri və pedaqoji institutlar üçün yeni tədris planı tərtib etmək məqsədi ilə xüsusi komissiya yaradılmışdı. Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinin dekanı, professor A.Xələfov həmin komissiyanın sədri təyin edilmişdi. Bu komissiyanın tərkibinə Bakı, Vilnüs, Dağıstan, Türkmənistan, Kişinyov Dövlət universitetlərindən, Tallin, Tbilisi, Çimkənd Pedaqoji institutlarından 8 nəfər üzv daxil edilmişdi. Komissiyanın tərtib edilmiş və professor A.Xələfov tərəfindən imzalanmış tədris planı 1989-cu ildə SSRİ Mədəniyyət Nazirliyi tərəfindən SSRİ-nin kitabxanaçılıq fakültələri olan bütün universitetləri üçün nümunəvi plan kimi təsdiq edildi.

Müstəqillik illərində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi öz işini müvəffəqiyyətlə davam etdirmişdir. Məlumdur ki, SSRİ dövründə digər ixtisas sahələrində olduğu kimi, kitabxanaçılıq ixtisası sahəsində də bütün dərsliklər, dərs vəsaitləri, xüsusi ilə proqramlar Moskvada hazırlanıb müttəfiq respublikalara göndərilirdi. Müstəqillik əldə edildikdən sonra isə bu proses dayanmışdı. BDU-nun digər fakültələri kimi Kitabxanaçılıq fakültəsinin kollektivi də bu mühüm işin öhdəsindən özü gəlməli idi. Çox böyük çətinliklərlə olsa da, fakültənin yaradıcı kollektivi özünün çoxillik təcrübəsinə arxalanaraq müstəqilliyin tələblərinə uyğun, milli ideologiyaya dərindən yiyələnməklə, milli dövlətçilik və Azərbaycançılıq konsepsiyasının qarşıda qoyduğu vəzifələrə, milli ənənələrə söykənməklə yeni dərs proqramları, dərsliklər və dərs vəsaitləri hazırlayıb nəşr etdirməyə başladı.

Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin kollektivi 1990-cı illərin əvvəllərindən başlayaraq, ilk növbədə, fakültədə tədris edilən bütün ixtisas fənləri üçün dərs proqramlarını yenidən işləməyə başladı. Proqramların yenidən işlənərək tərtib edilməsi olduqca məsuliyyətli idi. Bütün proqramlar suverenliyimizin qarşıda qoyduğu vəzifələrə cavab verməli, milli ideologiyamıza uyğun gəlməli, bəşəri sərvətlərlə zənginləşməli idi.

Bakı Dövlət Universitetinin Elmi Şurası 1993-cü ildə bütün fakültələrdə çoxpilləli təhsil sisteminin ardıcıl həyata keçirilməsi üçün dördillik "Bakalavr" tədris planlarının tərtib edilməsi haqqında qərar çıxardı. Məlumdur ki, qərar qəbul edilənə qədər Azərbaycanda ali təhsilli kadrların hazırlanması SSRİ ali təhsil sisteminə əsaslanırdı və təhsil birpilləli idi. Ali təhsil ali məktəbin tipindən asılı olaraq dörd və beş illik idi. Bir qayda olaraq bütün universitetlərdə beşillik təhsil sistemi tətbiq edilirdi.

Azərbaycan Respublikasının Təhsil Qanununa görə bütün universitetlərdə çoxpilləli təhsil sistemi tətbiq edildi. İlk dəfə olaraq respublikamızda Avropa təhsil sisteminə keçildi. Yeni təhsil sistemi üç pillədən ibarət idi: bakalavr, magistr, doktor.

İkipilləli ali təhsil müəssisələrinin birinci pilləsini bitirənlər mövcud dövlət standartlarına müvafiq olaraq ümumi ali təhsili başa vurur, öyrəndiyi ixtisasın ümumi məsələlərinə yiyələnir. Fakültə elmi şuralarının qərarı ilə "Bakalavr" ixtisas və elmi dərəcəsi alan tələbələrin ali məktəblərdə və elmi müəssisələrdə işləmək hüququ yoxdur.

"Bakalavr" təhsil pilləsi buraxılış işi yazıb dövlət imtahan komissiyası qarşısında müdafiə etmək və istiqamət üzrə yekun dövlət imtahanı verməklə başa çatır. "Bakalavr" dərəcəsi almış mütəxəssislər qəbul imtahanı verib magistraturaya qəbul olurlar. Magistratura əsasən dərin ixtisaslaşmalar aparılmaqla fərqlənir. Bu və ya digər elmin ayrı-ayrı sahələri araşdırmalar, tədqiqatlar vasitəsilə öyrədilir. Belə araşdırmalarda magistrlərin bilavasitə iştirak etməsi, buraxılış dissertasiya işi yazması onların elmi işçi kimi formalaşmasına imkan yaradır. Magistraturada həmçinin gələcək mütəxəssislərin yüksək dərəcəli elmi işçi, müəllim, aparıcı alim olacağını nəzərə alaraq, dünya elmi və mədəni sərvətlərinə yiyələnə bilmək bacarığı aşılamaq üçün xarici dillərdən heç olmasa birini mükəmməl bilməsi tələb olunur. Magistraturanı başa vuranlar müdafiə etdikləri elmi işə görə ixtisaslaşdırılmış elmi şuranın qərarı ilə "Magistr" ixtisası və elmi dərəcəsi alır. Bu dərəcə ona seçdiyi ixtisas üzrə ən yüksək pillələrdə, ali məktəblərin "Bakalavr" pilləsində, elmi tədqiqat müəssisələrində, birpilləli institutlarda, kolleclərdə işləmək hüququ verir. "Magistr" ixtisas və elmi dərəcəsi almış şəxslər istehsalatda da yüksək vəzifələrdə işləmək hüququna malikdirlər.

Kadr potensialı və maddi-texniki bazası imkan verən, müxtəlif ixtisaslar üzrə böyük laboratoriyalara, elmi-təcrübi bazalara malik olan bəzi universitetlər və akademiyalar üçpilləli təhsil sisteminə keçə bilərlər. Magistr hazırlığına icazə verən ali məktəblərə magistraturaya test vasitəsilə qəbul imtahanları verən şəxslər qəbul edilirlər. Magistraturanı qurtaran şəxslər doktoranturaya qəbul edilə bilirlər. Üç il müddətində doktoranturada tədqiqatlarını davam etdirən, öz elmi işlərinin nəticələrini doktorluq dissertasiyası kimi ixtisaslaşdırılmış elmi şuralarda müdafiə edən şəxslər doktoranturanı bitirmiş hesab edilirlər. Doktorlar universitetlərdə, institutlarda, elmi tədqiqat müəssisələrində, təcrübə bazalarında və s. işləyə bilərlər.

Azərbaycan Respublikası Təhsil Qanununun əsas müddəalarını tətbiq etmək üçün kitabxanaçılıq fakültəsinin kollektivi mühüm tədbirlər həyata keçirməyə başladı. İlk əvvəl qanunu öyrənmək məqsədilə ixtisas kafedralarında və fakültə elmi şurasında qanunun müzakirəsi keçirildi, tədbirlər planı tərtib edildi. Qərara alındı ki, yeni qanuna müvafiq "Bakalavr" hazırlamaq üçün tədris planı hazırlansın. Əlbəttə, bu iş o qədər də asan deyildi. Çünki 1993-cü ilə qədər fakültə beşillik tədris planı əsasında işləmişdi. Yeni plan isə dördillik olmalı idi. Dördillik tədris planı hazırlamaq üçün o qədər də zəruri olmayan bir sıra fənlər çıxarılmalı, bir sıra fənlərin, o cümlədən ixtisaslaşma fənlərinin saatları isə azaldılmalı idi. Bu planda istehsalat təcrübələrinin də saatları xeyli azalmışdı. Ciddi müzakirələrdən sonra "Bakalavr" ali baza tədris planı tərtib etmək mümkün oldu. Tədris planı fakültə elmi şurasında, universitet elmi şurasında, sonra Təhsil Nazirliyində təsdiq edildi.

1993-cü ildə Azərbaycan Respublikasının Təhsil Qanununa müvafiq çoxpilləli təhsil prosesinə keçərkən kitabxanaçılıq fakültəsində yeni tədris planı hazırlandı. Bu planın əsasında 1989-cu ildə Moskvada təsdiq edilmiş tədris planı dururdu. Planda müasir şəraitdə Azərbaycanın müstəqilliyi ilə əlaqədar bir sıra ciddi dəyişikliklər edildi. Hər şeydən əvvəl Azərbaycan tarixi, Azərbaycan dili və ədəbiyyatı, xarici dil fənlərinin tədrisinə xüsusi diqqət yetirildi.

Tədris planında olduqca geniş yer tutmuş ictimai fənlərin saatları azaldıldı və bir sıra fənlər çıxarıldı. Bundan başqa, ixtisas fənlərinin tədrisində də bir sıra yeniliklər baş verdi. Dördillik təhsil müddətinə keçilməsinə baxmayaraq ixtisas fənlərinin saatları nəinki azaldılmadı, əksinə, yeri gəldikcə kitabxanaşünaslıq, biblioqrafiya və kitab tarixi fənləri üzrə artırıldı. Belə ki, respublikamızın milli xüsusiyyətləri nəzərə alınaraq "SSRİ-də və xarici ölkələrdə kitabxana işinin tarixi" fənninin tərkib hissəsi kimi tədris edilən "Azərbaycanda kitabxana işinin tarixi", həmçinin "Azərbaycanda kitab tarixi" və "Azərbaycan biblioqrafiyasının tarixi" fənlərinin müstəqil fənn kimi tədris edilməsi nəzərdə tutuldu. Yeni təhsil sisteminə birbaşa yox, tədricən keçməyin daha məqsədəuyğun olmasını nəzərə alan fakültə elmi şurası "Bakalavr" tədris planlarında müvəqqəti olaraq keçid dövründə ixtisaslaşmalar aparılmasının saxlanılmasını lazım bildi. Bu, əsas etibarilə dərs saatlarının azalmasının qarşısının alınması və "Bakalavr" ixtisas dərəcələrində keçilməsi zəruri olan fənlərin formalaşdırılmasına qədər ənənəvi ixtisaslaşmalardan istifadə edilməsi üçün saxlanılmışdı. Lakin dördillik "Bakalavr" tədris planı uzunömürlü olmadı. Cəmisi dörd il keçdikdən sonra bu planı yenisi ilə əvəz etmək zərurəti meydana çıxdı. Keçən müddət ərzində respublikamızın ali məktəbləri "Bakalavr" hazırlamaq sahəsində müəyyən təcrübə əldə etdilər, həmçinin xarici ölkələrdəki ali mək-təblərin işi ilə tanış olmaq imkanı qazandılar. Bu müddətdə Təhsil Nazirliyinin yaratdığı yüksək ixtisaslı mütəxəssislərdən ibarət komissiya təhsil standartlarını hazırladı. Ayrı-ayrı ixtisaslar, o cümlədən kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə standartların yaradılması yeni tədris planlarının tərtibinə və təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərdi. Standartda müəyyən bir ixtisas üzrə kadr hazırlığı zamanı tədris planına daxil ediləcək bütün predmetlərin qısa proqramının verilməsi və öyrənilmə dərəcəsinin müəyyənləşdirilməsi tədris planlarının tərtibində mühüm rol oynadı.

1996-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən hazırlanıb təsdiq edilən ixtisas standartları 1997-ci ildə "Bakalavr" pilləsi üzrə yeni tədris planlarının hazırlanmasına kömək etdi. Azərbaycan Respublikası Təhsil Nazirliyində təhsil standartları hazırlayan komissiyanın kitabxanaşünaslıq və biblioqrafiya ixtisasları üzrə sədri Kitabxanaşünaslıq kafedrasının müdiri prof. Abuzər Xələfov olmuşdur.

Kitabxanaşünaslıq və biblioqrafiya üzrə ixtisas standartı fakültəmizin tarixində ilk dəfə hazırlanmışdı. Komissiya uzunmüddətli axtarışlar aparmış, bir çox xarici ölkələrin ixtisas standartları ilə tanış olmuş, yerli şəraiti və tarixi ənənələrimizi nəzərə alaraq bu standartı tərtib etmişdir. Bu standarta müvafiq olaraq tərtib edilən yeni "Bakalavr" ixtisası tədris planı daha da təkmilləşdirilmiş, Avropa ölkələrinin çoxpilləli "Bakalavr" tədris planlarına uyğunlaşdırılmışdır. Planda respublikamızın milli xüsusiyyətləri, tarixi, tədris ənənələri nəzərə alınmış, elmi-texniki tərəqqinin son nailiyyətləri öz əksini tapmışdır.





1997-ci ildə tərtib edilmiş kitabxanaşünaslıq və biblioqrafiya üzrə tədris planında ixtisaslaşmalar çıxarılmış, onların yerini ümumi ixtisas kurslarının daha mükəmməl tədrisi tutmuşdur. Həmçinin yeni dövrün tələblərinə uyğun olaraq ixtisas fənləri üzrə bir sıra ümumi kurslar plana daxil edilmişdir. Kitabxanaşünaslıq üzrə "Kitabxana iqtisadiyyatı", "Uşaqlara kitabxana xidməti", "Normativ-texniki və xüsusi növ sənədlərin təsviri, təsnifləşdirilməsi", "Kitabxanada kataloqlaşdırma proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması" fənlərini; biblioqrafiya üzrə: "Uşaq və gənclər üçün ədəbiyyatının biblioqrafiyası", "Normativ-texniki sənədlərin və patent ədəbiyyatının biblioqrafiyası" fənlərini buna misal göstərə bilərik.

1997-ci ildə respublika ali məktəblərinin bütün fakültələrində "Bakalavr" ixtisas dərəcəsi üzrə, yəni təhsilin birinci pilləsi üzrə ilk buraxılış oldu. Bununla əlaqədar Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsilin "Magistratura" pilləsini davam etdirmək haqqında xüsusi sərəncam verdi və bu sərəncamda respublika üzrə "Magistr" hazırlanan ixtisasların siyahısı sadalandı. Bu siyahıya "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Kitabşünaslıq və nəşriyyat işi" ixtisasları da daxil edilmişdir.

Kitabxanaçılıq-informasiya fakültəsi Təhsil Nazirliyinin əmrinə müvafiq olaraq "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq" və "Kitabşünaslıq və nəşriyyat işi" ixtisaslaşmaları üzrə magistr tədris planını tərtib etməyə başladı. Təhsil Nazirliyi tərəfindən müəyyən təlimati məktublar, standartlar, nümunələr göndərilməsinə baxmayaraq, fakültə üçün yeni olan "Magistr" tədris planının tərtibi ciddi axtarışlar və müzakirələr tələb edirdi. Kollektivin qarşısında mühüm vəzifə qoyulmuşdu. Fakültənin kollektivi və elmi şurası bu işin öhdəsindən müvəffəqiyyətlə gəldi. Kitabxanaçılıq fakültəsi 1997-ci ildə magistr planını tərtib edib başa çatdırdı. Bu planda əyani şöbədə təhsil müddəti iki il nəzərdə tutulmuşdur. Fakültənin tərtib etdiyi magistr təhsil planı 1997-ci ilin iyun ayında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir.

1999-2000-ci tədris ilindən başlayaraq Kitabxanaçılıq-informasiya fakültəsinə "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Nəşriyyat işi və redaktətmə" ixtisasları üzrə magistr qəbuluna başlandı. 2000-ci ildə magistraturaya 6 nəfər qəbul edildi. İlk illər çətin olsa da fakültənin kafedraları magistr hazırlamaq işinin öhdəsindən müvəffəqiyyətlə gəldi. 2002-ci ildə fakültədə ilk magistr buraxılışı oldu. Fakültəni altı nəfər magistr bitirdi. Universiteti bitirən magistrlər hazırda BDU-da və respublikanın elmi-texniki kitabxanalarında müvəffəqiyyətlə çalışırlar. Müstəqillik illərində fakültənin magistratura şöbəsini 75 nəfər müvəffəqiyyətlə bitirmişdir.

1990-cı illərdə respublikamızın müstəqilliyi ilə əlaqədar yeni dövrün tələbatına uyğun böyük təşkilati və elmi metodik işlər həyata keçirilmişdir.

Respublikamızda müstəqil, suveren, demokratik dünyəvi dövlətin qurulması, sosializm quruculuğundan, marksizm-leninizm nəzəriyyəsindən imtina edilməsi, hər şeydən əvvəl təhsilin demokratikləşdirilməsini və humanistləşdirilməsini, onun məzmununda böyük ideoloji dəyişikliklər aparılmasını, başqa sözlə, onun elmi-nəzəri və metodoloji əsaslarının yeni təfəkkür tərzi, yeni dünyagörüşü baxımından işlənilməsini tələb edirdi. Göstərilən vəzifələrin öhdəsindən tez bir müddət içərisində gəlmək o qədər də asan iş deyildi. Bu işin yerinə yetirilməsində bütün kollektivin səyi tələb olunurdu.

Kollektiv 1990-cı illərin əvvəllərindən başlayaraq ilk növbədə fakültədə tədris edilən bütün fənn proqramlarını yenidən işləməyə başladı. Proqramların yenidən işlənməsi, bəzi proqramların isə yenidən tərtib edilməsi olduqca məsuliyyətli idi. Bütün proqramlar suverenliyin qarşıya qoyduğu tələblərə cavab verməli, milli ideologiyamıza uyğun yenidən işlənməli, bəşəri sərvətlərlə zənginləşməli idi. Proqramların məzmunundan kommunist ideologiyasının çıxarılması, yeni demokratik əsasda işlənilməsi tələb edilirdi.

Yeni iqtisadi və siyasi sistemin təşəkkül tapdığı bir zamanda başlıca söhbət kitabxana işi sahəsində mövcud prinsiplərin yeniləşdirilməsindən və qismən dəyişdirilməsindən deyil, onların köklü surətdə təzədən formalaşdırılmasından gedirdi. Bu da hər şeydən əvvəl keçmiş totalitar rejimdən, sosializm quruculuğu illərindən miras qalmış kitabxanaların ideologiyalaşdırılması, sinfilik, partiyalılıq kimi antielmi və qeyri-humanist prinsiplərin rədd edilməsini, onun dünyəvi, humanist prinsiplərlə əvəzlənməsini tələb edirdi.

Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin kollektivi müstəqillik illərində Azərbaycan tarixində ilk dəfə olaraq orijinal milli dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar yazıb çap etdirməyə müvəffəq oldu.

Azərbaycan Respublikasının müstəqiliyi və informasiya cəmiyyəti şəraitində kitabxana işində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin daha geniş imkanlara malik olduğu nəzərə alınaraq, 2003-cü ildə fakültənin adının dəyişdirilməsi və "Kitabxanaçılıq-informasiya fakültəsi" qoyulması təşəbbüsü irəli sürüldü. Bu təşəbbüsü həyata keçirmək üçün tədris planına informatikaya, informasiya texnologiyasına, kitabxana işinin komplektləşdirilməsinə dair yeni fənlər salındı. Beləliklə, Kitabxanaçılıq fakültəsinin tədris planına "Kitabxana işinin kompüterləşdirilməsinin əsasları", "Kitabxana iqtisadiyyatı", "Kitabxana və informasiya texnologiyası", "Kitabxanaçılıq informatikası", "Kitabxana marketinqi", "Kitabxana menecmenti" və s. kimi tamamilə yeni predmetlər daxil edildi. Bundan sonra BDU rektoru Kitabxanaçılıq fakültəsinin "Kitabxanaçılıq-informasiya fakültəsi" adlandırılması haqqında əmr imzaladı.





Kitabxanaçılıq-informasiya ixtisasının hazırkı dövrün tələbatına uyğun şəkildə yeniləşməsində ABŞ-ın İllinoys və Urbana-Şampeyn universitetlərinin, Fransanın Nitsa Universitetinin Lion Ali Məktəbinin, Belçikanın Namur Ali Kitabxanaçılıq Məktəbinin, eləcə də Rusiya ali məktəblərinin təcrübələrindən geniş istifadə edilmişdir.

1999-cu ilin axırlarında rektorun əmri ilə fakültənin Kitabxanaşünaslıq kafedrasının yanında "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyası açıldı. Bu laboratoriya respublikamızda kitabxana işinin informasiyalaşdırılmasının elmi istiqamətlərini müəyyənləşdirən ilk laboratoriyadır. Laboratoriyaya BDU-nun Elmi Kitabxanasının yanında yer ayrıldı. Laboratoriya əməkdaşları BDU-nun Elmi Kitabxanasının kompüterləşməsini həyata keçirməyə başladılar. Qısa müddətdə kitabxanada elektron kataloq, elektron kitabxana yaradıldı, kitabxananın köməkçı fondları və qəzet-jurnal fondu kompüterin yaddaşına köçürüldü.

Son dövrlərdə Bakı Dövlət Universitetində həyata keçirilən islahatlar Kitabxanaçılıq-informasiya fakültəsindən də yan keçməmiş, fakültənin kadr potensialı xeyli möhkəmlənmiş, cavan kadrların rəhbər vəzifələrə işə çəkilməsi təmin edilmiş, öz elmi yaradıcılıq fəaliyyəti ilə fərqlənən dosent Azad Qurbanov dekan, dosent Knyaz Aslan Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Elçin Əhmədov isə Kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsinə irəli çəkilmişlər.

Kitabxanaçılıq-informasiya fakültəsində tədris işinin səmərəli təşkilində böyük rolu olan elmi-metodik iş daha da canlanmış, yeni dərsliklər və dərs vəsaitləri ilə təminat sahəsində xeyli dönüş yaranmışdır.

Ötən illər ərzində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-fakültəsinin hazırladığı yüksək ixtisaslı peşəkar kitabxanaçı-informasioloq və kitabşünas kadrlar kadrlar demək olar ki, respublikamızın bütün kitabxanalarında fəaliyyət göstərir, kitabxana və nəşriyyat işinin müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində yenidən qurulmasında, əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində yaxından iştirak edir. Bu dövrdə respublikamızda ali kitabxanaçılıq təhsilinin inkişafı sahəsində olduqca böyük uğurlar qazanmasında Kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcısı və ilk dekanı professor Abuzər Xələfovun səmərəli fəaliyyətini xüsusi vurğulamaq lazım gəlir. Məhz onun xidməti sayəsində yüksək ixtisaslı kitabxanaçı-informasioloq kadrların hazırlanması istiqamətində böyük nailiyyətlər qazanılmış, bu fakültə kitabxanaçılıq təhsilinin və elminin ən qabaqcıl mərkəzlərindən birinə çevrilmişdir.

Prof. Abuzər Xələfov Azərbaycanda kitabxana işi sahəsində ilk namizədlik və doktorluq dissertasiyası müdafiə etmiş, milli kitabxanaşünaslıq elmi məktəbinin banisi olmuş, özünün ardıcıllarını yetirmişdir.

Fakültənin yaradıcısı və ağsaqqalı prof. A.Xələfov müstəqillik illərində respublikamızın və BDU-nun ictimai həyatında yaxından iştirak etmiş, "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununu hazırlayan işçi qrupunun rəhbəri, "Təhsil Qanunu"nun işçi qrupunun üzvü, Bakı Dövlət Universitetinin Nizamnaməsini hazırlayan komissiyanın üzvü olmuşdur.

Yüksək ixtisaslı kitabxanaçı-informasioloq kadrların hazırlanmasında, kitabxanaşüanslıq elminin inkişaf etdirilməsində, kitabxanaşünaslığa dair ilk milli dərsliklərin yaradılmasında xidmətlərinə görə prof. A.Xələfov "Şöhrət" ordeni ilə təltif edilmiş, "Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi" "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür. 2008-ci ildən isə o, Prezident təqaüdçüsüdür. 2016-cı ildə prof. A.Xələfovun 85 illik yubileyi respublika və beynəlxalq miqyasda geniş qeyd edilmiş, bu yubiley bütövlükdə Bakı Dövlət Universitetinin və ölkəmizin mədəniyyət bayramına çevrilmişdir.

Abuzər Xələfov elmi tədqiqat işinə hələ tələbəlik illərində maraq göstərməyə başlamış, sonralar bu marağın ötəri olmadığını özünün sanballı araşdırmaları ilə təsdiqləmişdır. O, tələbə elmi dərnəklərində və elmi seminarlarda fəallıq göstərmiş, kitabxana işinin tarixi və nəzəriyəsi ilə bağlı maraqlı məruzələrlə çıxış etmişdir.

Bakı Dövlət Universitetinin müəllimi işlədiyi dövrdə ilk araşdırmalarını davam etdirən gənc mütəxəssis ilk dəfə olaraq Azərbaycanda kitabxana işinin tarixi inkişafının mühüm mərhələlərini ümumiləşdirməyi qarşısına məqsəd qoymuş və bu istiqamətdə uğurlu axtarışlar aparmağa başlamışdır. Bu zaman o, belə bir elmi məntiqə əsaslanmışdır ki, tarixi keçmişə müraciət etmədən kitabxana işinin müasir problemlərinin elmi cəhətdən düzgün dərk edilməsi mümkün deyildir.

Kitabxana işi tarixinin tədqiqatçısı kimi ciddi elmi tədqiqat fəaliyyətinə başlayan gənc A.Xələfov 1950-ci illərin sonlarından ilk elmi tədqiqat məqalələri ilə mətbuatda çıxış etməyə başlayır. Onun bu dövrdə yazıb dərc etdirdiyi «ADU-nun kitabxanası necə yaran-mışdır?», «Azərbaycan Dövlət Universitetinin əsas kitabxanasının yaranması və inkişaf tarixindən (1920-1929)», «Kitabxana fondu təşkilinin bəzi məsələləri», «Kitab belə yaranmışdır» və başqa araşdırmaları XIX əsrin sonu – XX əsrin əvvəllərində, həmçinin 20-30-cu illərdə Azərbaycanda kitabxana işinin tarixi, habelə kitabxanaların qabaqcıl iş təcrübəsi, mövcud problemlər və s. kimi mövzulara həsr olunmuşdu. O, eyni zamanda mədəniyyət, kitabxanaçılıq, biblioqrafiya və kitabçılıq işlərinə dair Azərbaycanda nəşr olunmuş yeni kitablar haqqında rəylər və məqalələr yazaraq dövri mətbuat səhifələrində dərc etdirirdi.

Onun ilk dəfə olaraq Azərbaycanda kitabxana işinin inkişafının mühüm mərhələlərini elmi cəhətdən ümumiləşdirməyə başlaması, kitabxanaların tarixinin tədqiqatçısı yolunu seçməsi, kitabxana fəaliyyətinin müasir vəzifə və problemlərini qanunauyğun şəkildə öyrənməsi elmi ictimaiyyətin diqqətini cəlb edir.





Gənc tədqiqatçının 1960-cı ildə bir-birinin ardınca nəşr etdirdiyi «Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920-ci illər)» adlı dərs vəsaiti və «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər)» adlı monoqrafiyası mütəxəssislər tərəfindən rəğbətlə qarşılanır.

1961-ci ildə Azərbaycan EA-nın Tarix İnstitutunun elmi şurasında Azərbaycan EA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Zülfəli İbrahimovun rəhbərliyi ilə tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün «-Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər)» mövzusunda dissertasiya müdafiə edən Abuzər Xələfov respublikamızda kitabxanaşünaslıq fikrinin formalaşmasının və inkişafının bünövrəsini qoydu.

Dissertasiya işi sovet dövrünə həsr edilsə də, gənc müəllif əsərin I fəslində qədim zamanlardan bəri Azərbaycanda yaranıb fəaliyyət göstərmiş kitabxanalar, xüsusilə XIX əsrin axırları-XX əsrin əvvəllərində respublikaızda kitabxana işi haqqında geniş xülasə vermiş, bu sahə ilə bağlı zəngin elmi təsəvvür yarada bilmişdi.

Azərbaycanda kitabxana işi tarixinin ilk tədqiqatçısı, tarix elmləri namizədi Abuzər Xələfov öz namizədlik dissertasiyası mövzusunu davam etdirməyi qarşısına mühüm bir məqsəd kimi qoyur. Odur ki, görkəmli tarixçi alimlərin məsləhəti ilə o, 60-cı illərin əvvəllərində «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» adlı doktorluq dissertasiyası mövzusunu BDU-nun Tarix fakültəsinin elmi şurasında təsdiq etdirdi.

O vaxta qədər tədqiqat obyekti olmamış bu mövzu üzərində uzun illər boyunca gərgin işləyən A.Xələfov dissertasiya işi ilə bağlı neçə-neçə elmi məqalə yazaraq universitetin elmi əsərlərində və respublikanın dövri mətbuat orqanlarında dərc etdirdi, elmi seminarlarda və konfranslardakı maraqlı çıxışları ilə bu istiqamətdə əbəs yerə axtarışlar aparmadığını tarixi dəlillərlə sübuta yetirdi.

Artıq 1962-ci ildən BDU-nun Kitabxanaçılıq fakültəsinin dekanı, 1963-cü ildən isə Kitabxanaşünaslıq kafedrasının müdiri vəzifələrində işləyən A.Xələfov 1964-cü ildə SSRI Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adına layiq görülmüşdü.

70-ci illərin əvvəllərində elmi tədqiqat işini yazıb başa çatdırdı və onu 1974-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında monoqrafiya şəklində nəşr etdirdi.

Qeyd etməliyik ki, A.Xələfovun «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» adlı monoqrafiyası müəllifin Azərbaycanda kitabxana işi quruculuğunun inkişaf dinamikasını elmi əsaslarla düzgün ümumiləşdirdiyini,

onu respublikamızın tarixi və mədəniyyəti ilə qarşılıqlı əlaqədə işıqlandırdığını, kitabxana işinin planlaşdırılması, kitabxana şəbəkələrinin yerləşdirilməsi, onların maddi-texniki bazalarının möhkəmləndirilməsi, kitabxanaçılıq təhsili kitabxanalara metodik rəhbərlik sisteminin təkmilləşdirilməsi və s. kimi vacib məsələləri cəmiyyətin tərəqqisinə uyğun olaraq əks etdirdiyini sübuta yetirir. Həmin əsərin üstünlüklərindən biri də budur ki, alim o vaxta qədər elmi ictimaiyyətə məlum olmayan bir sıra mühüm faktlara söykənmiş, özünün elmi müddəalarını arxivlərdən zərrə-zərrə topladığı inandırıcı tarixi dəlillərlə təsdiqləyə bilmişdir.

Monoqrafiyanın daha bir mühüm cəhətini belə müəyyənləşdir-mək olar ki, müəllif Azərbaycanda kitabxana quruculuğunun inkişaf dinamikasını ümumiləşdirərək, sovet hakimiyyətinin həmin mərhələ-sində respublikamızın sosial-iqtisadi və mənəvi həyatının bütün cəhət-lərini qarşılıqlı əlaqədə göstərməyə nail olmuşdur. Kitabxana işinin inkişafı bütün mərhələlərdə Azərbaycan tarixi və mənəiyyəti ilə sıx əlaqədə, cəmiyyətin siyasi, iqtisadi və mədəni həyatının ayrı-ayrı sahələrində baş verən proseslər və qazanılmış nailiyyətlər fonunda geniş əks etdirilmişdir.

Əsərdə sovet cəmiyyətinin mədəni-əxlaqi iqliminin kökündən dəyişdirilməsində, geniş xalq kütlələrinin ümumtəhsil və mədəni səviyyəsinin yüksəldilməsində, bununla bağlı kompleks tədbirlərin həyata keçirilməsində dövlətin aparıcı rolu dövrün tələblərinə uyğun şəkildə təhlil edilmiş və zəngin faktlar əsasında şərh olunmuşdur.

Tədqiqatda Azərbaycanda kitabxana işinin inkişafının elmi əsasları və təcrübi metodları açılıb göstərilir, kitabxana quruculuğu sahəsində dövlət siyasəti təhlil edilir.

Tədqiq olunan dövrdə respublikamızın şəhərlərində və kənd rayonla-rında fəaliyyət göstərən müxtəlif tipli kitabxanalarda, o cümlədən kütləvi, elmi, texniki ali məktəb, həmkarlar ittifaqı və s. kitabxanalarda əhaliyə xidmətin forma və metodları da bu əsərdə ətraflı şəkildə təhlil edilmişdir.

Həmin mərhələdə Azərbaycanda kitabxana işinin dövlət planlaşdırılması, kitabxana şəbəkələrinin yerləşdirilməsi, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana fəaliyyətinin metodik təminat sisteminin yaradılması və təkmilləşdirilməsi, kitabxanaçılıq təhsili və s. kimi məsələlərin sistemli şəkildə işıqlandırılması kitabxana işinin inkişafının geniş mənzərəsini yaradır.

A.Xələfov bu monoqrafiyada bir çox qiymətli arxiv sənədlərini və dövri mətbuat materiallarını elmi dövriyyəyə daxil edərək, respublika kitab-xanalarının Böyük Vətən müharibəsi dövründəki fəaliyyətini hərtərəfli tədqiq etməyə çalışmışdır. Müəllif müharibə illərində «Hər şey cəbhə üçün, hər şey qələbə





üçün!» tarixi şüarının həyata keçirilməsində kitabxanaların iştirakına xüsusi yer ayrımış, bu istiqamətdə onların fəaliyyətini hərtərəfli təhlil etmişdir.

Yeri gəlmişkən bir məsələni vurğulayaq ki, A.Xələfovun həmin əsərdə sistemləşdirdiyi və ümumiləşdirdiyi bu tarixi faktlar Azərbay-canın Dağlıq Qarabağ bölgəsinin və başqa ərazilərinin Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunduğu müasir dövrdə xüsusi aktuallıq kəsb edir və bugünkü baxımdan öyrənilməyə layiqdir.

A.Xələfov həmin monoqrafiyasında elmi dövriyyəyə demək olar ilk dəfə daxil etdiyi çoxsaylı faktlar əsasında inandırıcı şəkildə göstərilir ki, Böyük Vətən müharibəsində sonrakı illərdə Azərbaycanda kitabxana işinin təkmilləşdirlməsi onun məzmununun keyfiyyətcə xeyli dəyişməsinə və daha da dərinləşməsinə, kitabxanaların fəaliyyəti-nin respublikanın sosial-iqtisadi vəzifələri ilə sıx bağlanmasına, cəmiyyətdə kitabxanaların rolunun və əhəmiyyətinin hiss olunacaq dərəcədə artmasına, beləliklə, kitabxana işinin xalqın mədəni inkişafında həlledici amillərdən birinə çevrilməsinə səbəb olmuşdur.

A.Xələfov 1975-ci ildə «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etdi. Bu, həm Azərbaycanda, həm də Sovet Ittifaqı miqyasında kitabxana işinin tarixi sahəsində müdafiə olunmuş ilk doktorluq dissertasiyasıdır. Bu doktorluq dissertasiyası yalnız maraqlı və qiymətli faktların zənginliyi ilə deyil, eyni zamanda alınmış elmi nəticələrin yeniliyi, orijinallığı və ümumiləşdirilməsi səviyyəsi baxımından həm Sovetlər Birliyinin geniş kitabxana ictimaiyyətinin, həm də mədəniyyətşünaslıq sahəsi mütəxəssislərinin diqqətini cəlb etmişdir.

Dissertasiya tarixilik prinsipinə və məntiqi ardıcıllığa uyğun olaraq respublika əhalisinə xidmət göstərən bütün kitabxana şəbəkələrinin: kütləvi, elmi, elmi-texniki, uşaq, məktəb, həmçinin ayrı-ayrı nazirliklərin, idarə və təşkilatların kitabxana şəbəkələrinin işi qarşılıqlı əlaqə baxımından işıqlandırılmış, ciddi elmi nəticələr çıxarılmışdır.

Müəllif dövrün tələbləri səviyyəsində sovet tarixşünaslığına, mədəniyyət tarixi, mədəni quruculuq nəzəriyyəsi, mədəniyyətşünaslıq və kitabxana işi tarixinin elmi metodologiyasına əsaslanaraq respubli-kamızda böyük bir dövr ərzində əhaliyə kitabxana xidmətinin aydın mənzərəsini yarada bilmiş, elmi cəhətdən əsaslandırılan ümumiləşdir-mələr aparmış və tədqiq etdiyüi tarixi prosesin orijinal dövrləşməsini yaratmağı bacarmışdır.

A.Xələfov eyni zamanda milli kitabxana işinin tarixini bilavasitə Azərbaycan tarixi ilə sıx əlaqədə öyrənmiş, mədəniyyət tarixinin ümumi inkişaf qanunauyğunluqları əsasında kitabxana işinin, əhaliyə kitabxana xidməti prosesinin təhlil və izahını vermişdir. Dissertasiyanın ən yaxşı məziyyətlərindən biri də budur ki, müəllif SSRI məkanında Azərbaycan kitabxana işinin özünəməxsus xüsusiyyətlərini, milli çalarlarını cəsarətlə açıb göstərə bilmişdir.

Doktorant öz elmi tədqiqat işində sübuta yetirmişdir ki, respublikamızda kitabxana işi mədəni tərəqqinin ayrılmaz tərkib hissəsi, çoxtərəfli və dinamik sosial təsisat kimi inkişaf etmiş, kitabxanalar hər bir dövrdə şəraitə uyğun olaraq çap əsərlərindən ictimai istifadəni təşkil edən, xalqın təhsil və tərbiyəsinə, ümummədəni və peşə səviyyəsinin yüksəlməsinə kömək göstərən bir müəssisə kimi fəaliyyət göstərmişdir.

Dissertasiya işində kitabxanaşünaslığın inkişaf tarixinin və kitabxanaçılıq təhsilinin öyrənilməsinə də xüsusi diqqət yetirilmişdir.

Elmi tədqiqatda yeri gəldikcə kitabxana işi sahəsində mövcud olan nöqsanların aşkara çıxarılmasını və çatışmazlıqların səbəblərinin müəyyənləşdirilməsini də sovet rejimi dövründə gənc araşdırıcının məsələlərə obyektiv və prinsipial yanaşması, problemlərin həlli yollarını cəsarətlə axtarıb tapması cəhdi kimi qiymətləndirmək olar.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi qazanması bir sıra mühüm vəzifələrin təxirəsalınmadan həyata keçirilməsini qarşıya qoymuşdur. Bu vəzifələr sırasında ali məktəblərdə tədris prosesinin yeniləşdirilməsi və yüksək ixtisaslı mütəxəssis hazrlığının səviyyəsinin artırılması məqsədinə xidmət göstərən, həmçinin müasir dövrün tələblərinə əsaslı şəkildə cavab verən dərslik və dərs vəsaitlərinin yazılıb nəşr edilməsi əsas yer tutur. Bu cəhətdən ixtisas fənləri sahəsində mövcud olan boşluğu doldurmaq üçün son zamanlar bir sıra uğurlu addımlar atılması xüsusilə təqdirəlayiqdir. Buna misal olaraq alim özünün uzunmüddətli elmi axtarışlarının nəticəsi kimi müasir dövrün tələbləri baxımından müstəsna əhəmiyyətə malik olan və kitabxanaşünaslığın bir sıra nəzəri problemlərinə dair yeni elmi baxışları aydınlaşdıran iki kitab yazıb nəşr etdirmişdir.

Professor A.Xələfovun ən böyük xidmətlərindən biri də onun 2001-2003-cü illər arasında Azərbaycan dilində kitabxanaşünaslığa dair ilk dərslik yazıb latın qrafikası ilə nəşr etdirməsidir. Alimin "Kitabxanaşünaslığa giriş" dərsliyi çoxillik elmi axtarışlarının və səmərəli pedaqoji fəaliyyətinin uğurlu bəhrəsidir. Dərsliyin məzmunu və mahiyyəti burada araşdırılan problemlərin əhəmiyyəti ilə şərtlənir ki, bu da dünyada müasir kitabxana informasiya proseslərinin nəzəriyyə və təcrübəsi üçün olduqca vacibdir. Kitabda kitabxanaşünaslıq fikrinin inkişaf tarixinin aktual məsələləri, dünya informasiya məkanında kitabxanaların elmi, informasiya və sosial-mədəni missiyası da tədqiq edilmişdir.

Tarixilik prinsipini əsas götürən A.Xələfov 2001-ci ildə işıq üzü görmüş irihəcmli, nəfis tərtibatlı dərsliyin I hissəsində haqlı olaraq kitabxanaşünaslıq fikrinin meydana gəlməsi, inkişafı, formalaşması və təkmilləşməsi məsə-lələrini ön plana çəkmişdir. Alim eramızdan əvvəl II minilliyin ortalarından bu günümüzə qədər dünyada, o cümlədən Avropa, Asiya, Amerika ölkələrində, xüsusilə Rusiyada kitabxanaşünaslıq fikrinin yaranmasını və inkişafını tarixi





və məntiqi ardıcıllıqla izləmiş, dəyərli ümumiləşdirmələr aparmış və inandırıcı elmi nəticələlə gəlib çıxmışdır. Eyni zamanda ən qədim dövrlərdən indiyə kimi Azərbycanda kitabxanaşünaslıq fikrinin təşəkkülü və inkişafı məsələsini araşdırarkəçn müəllif milli və ümumbəşəri ideyalara söykənmiş, dünya kitabxanaşünaslıq nəzəriyyəsinin mütərəqqi ənənələrindən bəhrələnmiş, sovet kitabxanaşünaslığının tərkib hissəsi kimi və müstəqil elm kimi Azərbaycan kitabxanaşünaslıq elminin tərəqqi yolunu ətraflı şəkildə tədqiq etmişdir.

Dərslikdə professor A.Xələfov XX əsrin 60-70-ci illərində kitabxanaşünaslığın humanitar elm olaraq formalaşması prosesinə nəzər salmış, kitabxanaşünaslıq nəzəriyyəsində demokartik ideyaların, intellektual azadlığın, informasiyadan sərbəst istifadənin geniş yayılması məsələsini vurğulamış, bu elmin mahiyyətini, obyektini və predmetini dəqiqləşdirmiş, funksiyalarını, strukturunu və quruluşunu izah etmişdir.

Professor A.Xələfovun «Kitabxanaşünaslığa giriş» dərsliyinin «Kitabxana işi haqqında təlim» adlanan III hissəsi 2003-cü ildə nəşr edilmişdir. 314 səhifədən ibarət olan, Azərbaycan dilində ilk dəfə yazılan və milli ənənələrimizə söykənən bu dərslikdə «Kitabxanaşü-naslığa giriş» fənninin ən mühüm hissəsi olan «Kitabxana işi haqqında təlim» bölməsi işıqlandırılmışdır. Müəllif 4 fəsildən ibarət olan bu dərslikdə kitabxana işinin umumi xarakteristikasını və kitabxana sistemlərinin təhlilini vermiş, kitabxana işi, onun təşkili, mahiyyəti, əhəmiyyəti və vəzifələri haqqında mövcud bilikləri sistemləşdirilmiş, konkret elmi nəçticələr çıxarmışdır. Həmin fəsillərdə kitabxana işinin ümumi xarakteristikası, kitabxana işinin formalaşması və inkişaf qanunauyğunluqları, kitabxana işinin təşkilinin əsas prinsipləri və kitabxana işinin idarəedilməsi sistemi kimi mühüm məsələlər geniş şəkildə öz elmi əksini tapmışdır.

Professor A.Xələfov eyni zamanda kitabxana işinin idarə edilməsinə verilən əsas tələbləri müəyyənləşdirmiş, idarəetmənin təşki-lini, strukturunu, metodların izah etmişdir. Burada Azərbaycanın müstəqilliyi şəraitində baş verən demokratikləşdirmə prosesləri fonunda kitabxana işinin idarə edilməsində demokratik prinsiplərin tətbiqi məsələsinə geniş yer verilməsi də təqdirəlayiq hal sayılmalıdır.

BDU-nun Kitabxançılıq-informasiya fakültəsinin, müvafiq orta ixtisas məktəblərinin tələbələri, magistrləri, aspirantları, dissertantları, professor-müəllim heyəti üçün nəzərdə tutulmuş «Kitabxanaşünaslığa giriş» dərslyinin çoxsaylı kitabxana işçiləri və ölkəmizin bütün kitabxana ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanması, eyni zamanda ötən qısa dövr ərzində,ona kitabxana işi üzrə tədqiqatçıların və təcrübi işçilərin müntəzəm olaraq müraciət etməsi professor A.Xələfovun növbəti elmi yaradıcılıq uğuru kimi qiymətləndirilmə-lidir.

Professor A.Xələfovun nəfis şəkildə tərtib olunmuş "Azərbaycanda kitabxana işinin tarixi (Ən qədim dövrlərdən XX əsrə qədər)" adlı fundamental

dərsliyi milli tariximizin əsas tərkib hissələrindən olan elm və mədəniyyət ocaqlarımızın – müxtəlif tipli və müxtəlif növlü kitabxanalarımızın meydana gəlməsi və inkişafı problemlərinin elmi cəhətdən araşdırılmasına və ümumiləşdirilməsinə həsr olunmuşdur. Müstəqillik illərində ana dilimizdə ilk dəfə yazılıb nəşr edililən bu dərslik ölkəmizin ərazisində meydana gəlmiş kitabxanaların inkişaf prosesini xronoloji ardıcıllıqla əks etdirir. Bütövlükdə uzun bir tarixi dövrü özündə əks etdirən dərslik uzunmüddətli gərgin səmərəli axtarışların bəhrəsi kimi qiymətləndirilə bilər.

Professor A.Xələfovun "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı monoqrafiyası 2006-cı ildə Azərbaycan Dövlət Nəşriyyatında nəfis şəkildə çapdan çıxmışdır. Monoqrafiyanı "Türk dünyasının böyük oğlu, Azərbaycan xalqının xilaskarı, müstəqilliyimizin banisi, görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsinə həsr edirəm" sözləri ilə başlayan müəllif bu məşhur şəxsiyyətin məşhur bir kəlamını kitaba epiqraf seçmişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

Professor A.Xələfov indiyə qədər kitabxana işinin tarixi, nəzəriyyəsi və kitabxanaşünaslığın ən müxtəlif problemlərinə dair 300-dən çox elmi əsər yazıb çap etdirmişdir. O, kitabxanaşünaslıq fənlər sislsiləsi üzrə proqramlar, dərsliklər, dərs vəsaitləri, elmi-metodik materiallar və s. hazırlanması sahəsində uğurlu fəaliyyət göstərmişdir. Görkəmli alim əsasən onların təşəbbüsçüsü, müəllifi, bir çox hallarda isə tərtibçisi və ya elmi redaktoru olmuşdur.

Bu qiymətli tədqiqatların hər biri milli mədəniyyətimizin araşdırılıb öyrənilməsi üçün əvəzsiz mənbə rolunu oynamaqdadır və onların əsasında Azərbaycanda kitabxana işinin proqnozlaşdırılması sahəsində dəyərli elmi tövsiyələr vermək imkanı yaranmışdır.

Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisasları sahəsində elmi-pedaqoji kadrların hazırlanmasında professor Abuzər Xələfovun əvəzsiz xidmətləri vardır. O, milli kitabxanaçılıq işinin tarixi və nəzəri problemləri istiqamətində səmərəli fəaliyyət göstərən xüsusi bir elmi məktəbin əsasını qoymuş və onun təkcə respublikamızda deyil, ölkəmizin sərhədlərindən uzaqlarda da nüfuz qazanması üçün şərəfli işlər görmüşdür.

Uzun illər ərzində Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodiki məsələləri ilə ardıcıl məşğul olan professor Abuzər Xələfovun yaratdığı xüsusi kitabxanaçılıq məktəbi sözün həqiqi mənasında tamamilə formalaşmış və müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf edərək, yüksək zirvəyə çatmışdır.

Professor A.Xələfovun yaratdığı elmi məktəb hazırda təkcə respublikamızda deyil, həm də qonşu xarici ölkələrdə kitabxanaçılıq fikrinin əsas elmi istiqamətlərini müəyyənləşdirir. Pedaqoq alimin rəhbərlik etdiyi Kitabxanaşünaslıq kafedrasının ölkədə bu elm sahəsinin aparıcı müəssisəsinə və elmi mərkəzinə çevrilməsi də bunun məntiqi nəticəsidir.





Professor A.Xələfovun elmi rəhbərliyi ilə 1 elmlər doktoru, 20-dən çox elmlər namizədi yetişmiş, o, Sovetlər Birliyi ərazisində müdafiə edilmiş onlarla namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuşdur.

Abuzər Xələfov elmi məktəbinin yetişdirmələri olan kitabxanaşünas alimlər – tarix elmləri doktoru, professor Xəlil Ismayılov, dosentlər Tacəddin Quliyev, Elman Bədəlov, Mayıl Həsənov, Almaz Abbasova, Aşur Əliyev, Zöhrab Baxşəliyev, Knyaz Aslan, Elçin Əhmədov, Mehmanəli Məmmədov, Əlizadə Nəcəfov, Şəfəq İslamova və başqaları kitabxana işinin nəzəriyyə və təcrübəsinə dair sanballı elmi araşdırmaların müəllifləridir. Bu elmi tədqiqatların əsasını ayrı-ayrı tarixi mərhələlərdə ölkəmizdə müxtəlif tipli və növlü kitabxanaların o cümlədən elmi, kütləvi, texniki, Həmkarlar Ittifaqı, uşaq, məktəb, tibb, kənd təsərrüfatı və başqa kitabxanaların yaranması tarixi, fəaliyyəti, oxuculara xidmət sahəsindəki nailiyyətləri və perspektiv inkişaf istiqamətlərinin ətraflı təhlili təşkil edir.

Professor A.Xələfovun başçılıq etdiyi kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmi məktəbinin nümayəndələri ölkəmizin mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsi olan kitabxana, biblioqrafiya və kitabçılıq işinin tarixi təkamülünü, onun ayrı-ayrı tarixi mərhələ və dövrlərdə inkişaf meyil və qanunauyğunluqlarını, ayrı-ayrı kitabxana şəbəkələrinin inkişaf mərhələlərini, kitabxana işinin avtomatiaşdırılması və müasir texnologiyanın tətbiqi məsələlərini kompleks şəkildə araşdıraraq, qiymətli nəticələr əldə etmişlər və bu istiqamətlərdə elmi axtarışlarını uğurla davam etdirirlər.

Professor A. Xələfovun yaratdığı elmi məktəb 1963-cü ildən bəri onun başçılıq etdiyi Kitabxanaşünaslıq kafedrasının əsas elmi istiqamətini müəyyənləşdirir. Ölkəmizdə bu kafedranın kitabxanaşünaslığın elmi mərkəzinə çevrilməsi də məhz bununla izah olunur.

Kitabxanaşünaslıq kafedrası kitabxana işinin tarixi, nəzəriyyəsi və metodikasının aktual məsələlərinə dair irihəcmli elmi işlər yerinə yetirmişdir ki, bunlar da Azərbaycanda yeni ictimai-siyasi şəraitdə kitabxana işi problemlərinin müasir baxımdan həyatının ümumi sitsteminde kitabxana-informasiya proseslərinin yüksək peşəkarlıqla ümumiləşdirilməsi, dərindən və hərtərəfli şəkildə araşdırılması səviyyəsi ilə seçilir.

Professor A.Xələfovun elmi rəhbərliyi ilə hazırlanmış ilk namizədlik dissertasiyasının müəllifi Hacı Həsənov olmuşdur. O, Kitabxanaçılıq şöbəsini 50-ci illərin axırlarında başa vuraraq Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına müəllim vəzifəsinə işə götürülmüşdü.

A.Xələfovun birinci dissertantı olan Hacı Həsənov həm də kitabşünaslıq sahəsində araşdırmalar aparan ilk tədqiqatçı idi. O, kitab mədəniyyəti tarixinin

araşdırılmasına həsr etdiyi "İnqilabdan əvvəl Azərbaycanda kitabçılıq işi" kitabını 1965-ci ildə çap etdirərək mütəxəssislərin istifadəsinə vermişdi.

Dissertant "Sovet Azərbaycanında kitab nəşrinin inkişafı (1920-1932-ci illər)" mövzusunda yazdığı dissertasiya işini 1966-cı ildə müdafiə etmiş və tarix elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

Sonralar bu sahədəki elmi tədqiqatını davam etdirən kitabşünas alim Hacı Həsənov bir çox elmi məqalələr yazmaqla yanaşı, "Sovet Azərbaycanının kitab mədəniyyəti" (1975), "Azərbaycan kitabının inkişaf mərhələləri" (1989) adlı kitablarını da nəşr etdirmişdir. Həmin əsərlərdə o, kitabın yaranması, kağız və çap maşınının ixtira edilməsi, qədim əlyazmaların tərtibi, ilk xəttatlar haqqında xeyli tarixi məlumatları ümumiləşdirmiş, həmçinin 1920-ci ildə başvermiş bolşevik inqilabından əvvəl və sovet hakimiyyəti illərində Azərbaycanda kitab nəşrinin tarixini geniş işıqlandırmışdır.

A.Xələfovun ilk aspirantı olan Tacəddin Quliyev respublikamızda Həmkarlar İttifaqı kitabxanalarının inkişafı sahəsində ilk dəfə elmi tədqiqatlar aparmışdır. O, bu araşdırmaların nəticələrini ümumiləşdirərək 1969-cu ildə "Azərbaycanda Həmkarlar İttifaqı kitabxanalarının tarixi (1920-1941-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Tədqiqatçı uzun illərdən bəri öyrəndiyi problemi hərtərəfli şəkildə araşdırmağa, ümumiləşdirməyə və elmi sistemləşdirmə aparmağa nail olmuşdur. Azərbaycan Həmkarlar İttifaqı sistemində – sənaye müəssisələrində, zavodlarda, fabriklərdə, neft mədənlərində, mədəniyyət saraylarında, fəhlə klublarında, fəhlə yataqxanalarında fəaliyyət göstərən kitabxanaların 1920-1932-ci illərdəki göstəricilərini təhlil edən, obyektiv statistik müqayisələr aparan, prinsipial təhlillər verən, uğurları təqdir, qüsurları tənqid edən müəllif dövrün tələblərinə cavab verən elmi qənaətlər formalaşdırılmışdır.

Tacəddin Quliyevin elmi tədqiqatının nəticələri çoxsaylı elmi məqalələrdə, həmçinin 1986 və 2004-cü illərdə 2 hissədən ibarət nəşr edilmiş "Azərbaycanda kitabxanaçılıq işi (Respublika həmkarlar ittifaqı kitabxanalarının materialları əsasında)" adlı dərs vəsaitlərində öz əksini tapmışdır.

Professor A.Xələfovun elmi rəhbərliyi ilə müdafiə edilmiş dissertasiya işləri arasında Elman Bədəlovun "İnkişaf etmiş sosializm dövründə Azərbaycan SSR-də kənd əhalisinə kitabxana xidməti (1959-1970)" mövzusunda yazdığı elmi əsər mühüm elmi-təcrübi əhəmiyyətə malikdir. Müəllif 1976-cı ildə müdafiə etdiyi bu dissertasiya işində XX əsrin 70-ci illərində respublikamızda kənd əhalisinə kitabxana xidməti məsələlərini geniş şəkildə araşdırmış, sosioloji və kitabxanaşünaslıq eksperimentləri əsasında elmi ümumiləşdirmələr aparmışdır. Burada qoyulan problemlər və öz həllini tapan məsələlər kitabxanaşünaslığın aparıcı mövzularından biri kimi diqqəti cəlb edir.





E.Bədəlov tədqiqat əsasında respublikamızın kənd kitabxana şəbəkəsinin yerləşdirilməsi prinsiplərinə və inkişaf perspektivlərinə dair elmi cəhətdən əsaslandırılmış tövsiyələr işləyib hazırlamışdı. Həmin tövsiyələr kitabxanalarda oxuculara xidmətin səviyyəsinin artırılmasına, ictimaiyyətin kitabxana işində iştirakının gücləndirilməsinə, maddi-texniki bazanın yaxşılaşdırılmasına, kadrların düzgün seçilib yerləşdirilməsinə, məqsədyönlü metodik iş aparılmasına yönəldiyinə görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi bu tövsiyələrdən kitabxana işi təcrübəsində istifadə edilməsini məsləhət bilmişdi.

XX əsrin 80-ci illərinin ortaları professor A.Xələfovun rəhbərliyi ilə kitabxanaşünaslıq məktəbinin formalaşması dövrü kimi səciyyələndirilə bilər. Bu dövrdə bir-birinin ardınca 5 namizədlik dissertasiyası müdafiə edilmişdir.

Belə ki, Kitabxanaşünaslıq kafedrasının müəllimi Xəlil İsmayılov 1984-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində ixtisaslaşdırılmış müdafiə şurasında "Sovet hakimiyyəti illərində Azərbaycanda partiya kitabxanaları (tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, pedaqoji elmlər namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Məlumdur ki, sovet dövründə bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da iri partiya kitabxanaları şəbəkəsi fəaliyyət göstərirdi. Həmin kitabxanalar o zaman yeganə hegemon Kommunist Partiyasının ideologiyasını təbliğ etməklə yanaşı, həm də çoxsaylı mütəxəssis rəhbər işçilər arasında geniş kitabxana-informasiya işi də aparırdılar. Sayı müntəzəm şəkildə artan partiya kitabxanalarının fondunda ictimai-siyasi, həmçinin bədii, istehsalat-texniki, iqtisadi və s. sahələr üzrə ədəbiyyat toplanır və oxucuların istifadəsinə verilirdi. Sovet hakimiyyəti illərində partiya kitabxanaları bütövlükdə ölkə miqyasında fəaliyyət göstərən çoxmilyonlu ziyalılar arasında kitabxana-informasiya işinin təşkilatçısı kimi mədəni işlər də görürdülər.

Professor A.Xələfovun elmi rəhbərliyi ilə aparılan araşdırmalardan birinin müəllifi Kitabxanaşünaslıq kafedrasının baş müəllimi Mayıl Həsənov idi. O, həmin dövr üçün mühüm əhəmiyyət kəsb edən "İnkişaf etmiş sosializm şəraitində marksizm-leninizm klassiklərinin əsərlərinin kitabxana-biblioqrafiya təbliğinin optimallaşdırılması (Bakı şəhəri kütləvi kitabxanalarının iş təcrübəsi əsasında)" mövzusunda dissertasiya işini başa çatdırmışdı. Müəllif marksizm-leninizm klassiklərinin əsərləri ilə yanaşı olaraq, ümumiyyətlə, ictimai-siyasi ədəbiyyatın təbliği problemlərinin optimallaşdırılmasını öyrənib ümumiləşdirməyə çalışmış, mövzu ilə əlaqədar geniş sosioloji tədqiqatlar aparmış, kitab təbliği işinin təkmilləşdirilməsi ilə bağlı qiymətli fikirlər irəli sürmüşdür.

Mayıl Həsənov dissertasiya işini 1984-cü ildə BDU-nun Tarix fakültəsinin nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış Elmi Şurada müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.

Professor A.Xələfovun elmi rəhbərliyi ilə gənc tədqiqatçı Zöhrab Baxşəliyev 1989-cu ildə "Azərbaycan neft sənayesinin elmi-texniki kitabxanaları: tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri" mövzusunda dissertasiya işini BDU-nun Tarix fakültəsinin nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış Elmi Şurada müdafiə edərək tarix elmləri namizədi alimləik dərəcəsinə layiq görülmüşdür.

Müəllif bu dissertasiya işində respublika elmi-texniki kitabxana şəbəkəsinin əsasını təşkil edən neft sənayesi elmi-texniki kitabxanalarının inkişaf tarixini və müasir vəziyyətini zəngin arxiv və hesabat materialları, elmi, nəzəri və metodik ədəbiyyat əsasında tədqiq etmişdir. O, 1959-1985-ci illərdə respublika neft sənayesi elmi-texniki kitabxanalarının inkişaf meyilləri və sənaye sahəsində fəhlə və mütəxəssislərə kitabxana xidməti prosesini ətraflı şəkildə öyrənmiş, kitabxanaşünaslıq ədəbiyyatında öz əksini tapmayan Azərbaycan neft sənayesi kitabxanalarının inkişaf tarixini əks etdirmiş və neft sənayesi mütəxəssislərinə kitabxana-informasiya xidməti sisteminin xüsusiyyətlərini müəyyənləşdirmişdir.

XX əsrin 90-cı illərində professor A.Xələfovun başçılığı ilə kitabxanaşünas alimlər ayrı-ayrı kitabxanaların iş təcrübəsinin öyrənilib və ümumiləşdirilməsinə, elmi-metodik nəticələr çıxarılmasına, sanballı tövsiyələr hazırlanmasına daha çox diqqət yetirmişlər. Bu baxımdan Kitabxanaşünaslıq kafedrasının baş müəllimi Almaz Abbasovanın "M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişafı və təkmilləşdirilməsi perspektivləri (1959-1985-ci illər)" mövzusunda yazdığı dissertasiya işi respublikamızın baş kitabxanasının tarixinə, inkişaf perspektivlərinə və işinin daha da təkmilləşdirilməsinə həsr edilmişdir. Bu dissertasiya işində ilk dəfə olaraq bir kitabxana obyekt kimi götürülmüş, onun fəaliyyəti kompleks şəkildə araşdırılmış, kitabxananın fondunun tərkibi və komplektləşdirilməsi problemi, kitabxananın tarixi, müasir vəziyyəti geniş tədqiq edilmişdir. Müəllif bu əsərdə geniş elmi, nəzəri, metodik və arxiv materiallarına və kimtabxananın iş təcrübəsinə əsaslanaraq ciddi elmi ümumiləşdirmələr aparmış, kitabxananın elmi-metodik fəaliyyətinin öyrənilməsinə geniş yer vermiş, kitabxananın gələcək inkişafına və oxuculara xidmət prosesinə kömək məqsədi ilə bir sıra elmi tövsiyələr vermişdir.

Almaz Abbasova dissertasiya işini professor A.Xələfovun elmi rəhbərliyi ilə 1990-cı ildə BDU-nun Tarix fakültəsinin nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış Elmi Şurada müdafiə edərək tarix elmləri namizədi alimləik dərəcəsinə layiq görülülmüşdür. Maraqlı faktdır ki, Almaz Abbasova respublikamızda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ixtisası üzrə elmlər namizədi alimlik dərəcəsi almış ilk qadın kimi adını tarixin səhifələrinə yazmışdır.

Kitabxanaşünaslıq kafedrasının əməkdaşları 90-cı illərdə də Azərbaycanda kitabxana işinin tarixinin öyrənilməsi istiqamətində uğurlu araşdırmalar





aparmış və bu problemin hərtərəfli tədqiqinə çalışmışlar. Bu baxımdan qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan Muxtar Respublikasında kitabxana işi tarixinin araşdırılmasıi kitabxanaşünaslıq elmi məktəbinin ən mühüm uğurlardan biri kimi qiymətləndirilə bilər. Belə ki, dissertasiya işinin müəllifi, Kitabxanaşünaslıq kafedrasının müəllimi Aşur Əliyev uzun müddət Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının dövlət arxivlərində və mərkəzi kitabxanalarında ciddi elmi axtarışlar apararaq, o vaxta qədər tədqiqat obyekti olmamış bir problemin həlli məqsədi ilə çox vacib işlər görmüşdür. O, mövcud ədəbiyyatdan və dövri mətbuat materiallarından yaradıcılıqla bəhrələnərək geniş elmi ictimaiyyətə məlum olmayan bir sıra maraqlı faktları aşkara çıxarmış, onları elmi dövriyyəyə daxil etmiş, apardığı araşdırmaları bacarıqla ümumiləşdirmiş, 1920-1985-ci illərdə Muxtar Respublikada kitabxana quruculuğu sahəsində əldə edilən nailiyyətlər haqqında bitkin təsəvvür yarada bilmişdir.

Aşur Əliyev professor A.Xələfovun elmi rəhbərliyi ilə yazıb başa çatdırdığı "Naxçıvan MSSR-də kitabxana işi (1920-1985-ci illər)" mövzusunda dissertasiya işini 1991-ci ildə BDU-nun Tarix fakültəsinin İxtisaslaşdırılmış Elmi Şurasında müdafiə etmiş və tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Bütün bunlarla yanaşı, professor A.Xələfovun başçılıq etdiyi Kitabxanaşünaslıq kafedrasında uzun illərdən bəri elmi-pedaqoji fəaliyyətlə məşğul olan tanınmış mütəxəssislərin tədqiqat sahələrinin qısaca olaraq xatırladılması da məqsədə və məntiqə uyğundur.

Kitabxana işi sahəsində zəngin təcrübəyə malik olan, xeyli müddət Azərbaycan Milli Elmlər Akademiyası Elmi Kitabxanasının direktoru vəzifəsində çalışan Rasim Kazımovun elmi yaradıcılığı bu baxımdan diqqətə layiqdir. O, 1972-ci ildə "Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası (1920-1965-ci illər)" mövzusunda yazdığı dissertasiyasını başa çatdırmış, onu Azərbaycan Pedaqoji Universitetinin Elmi Şurasında müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər namizədi alimilik dərəcəsinə layiq görülmüşdür.

Rasim Kazımov bu əsərdə Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın bibilioqrafiyasının, ümumiyyətlə, biblioqrafiyaşünaslığın bir çox nəzəri məsələlərinin öyrənilməsinə səy göstərmiş, qiymətli elmi nəticələr çıxarmağa nail olmuşdur. Azərbaycanda bədii ədəbiyyat və ədəbiy-yatşünaslığın bibilioqrafiyasının inkişaf yollarını araşdıran tədqiqatçı XX əsrin 20-ci illərindən sonra meydana gəlmiş mütərəqqi meyl və ənənələri ədəbi-bədii proseslə əlaqədə təhlil etmişdir. Dissertasiyada Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın bibilioqrafiyasının inkişaf perspektivlərinə, onun forma və

metod baxımından daha da genişləndirilməsinə dair bir sıra qiymətli tövsiyələr irəli sürülmüşdür.

Kitabxanaşünaslıq kafedrasının aparıcı mütəxəssislərindən biri olan dosent Rasim Kazımov 1970-1990-cı illərdə bir sıra mühüm elmi problemlərin araşdırılması, o cümlədən kitabxana işinin mərkəzləşdirilməsi, sənədlərin elmi təsnifləşdirilməsi və s. məsələlərlə məşğul olmuşdur. Son zamanlar isə o, professor A.Xələfovun məsləhəti ilə indiyə qədər işlənməmiş mövzulara müraciət etmiş, o cümlədən kitabxana işinin iqtisadi məsələlərinə dair elmi tədqiqat aparmış, "Bazar iqtisadiyyatı və kitabxanalar", "Kitabxana işinin iqtisadiyyatı" adlı dərs vəsaitləri yazıb nəşr etdirmişdir.

Kitabxanaşünaslıq kafedrasının müəllimi Sahib Rzayev 1973-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu ilə Nəsimi adına Dilçilik İnstitutunun birləşmiş Elmi Şurasında "Ömər Faiq Nemanzadənin ədəbi-publisistik fəaliyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Müəllif dissertasiya işində XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda kitab mədəniyyətinin vəziyyətinə nəzər salmış, 1905-ci ildə Tiflisdə yaradılan "Qeyrət" mətbəəsinin yaradıcısı Ömər Faiq Nemanzadənin naşirlik fəaliyyəti ərzində burada çap olunan ədəbi-bədii, ictimai-siyasi kitabların məzmununu açıqlamış, eyni zamanda bu kitabların xalq arasında yayılması haqqında maraqlı elmi məlumatları ümumiləşdirmişdir. Tədqiqat işində Ömər Faiqin xalq maarifinin inkişafı uğrunda mübarizəsi, əhalidə kitab mütaliəsinə, demokratik mətbuata meyl yaratmaqla bağlı arzuları, həmçinin bu sahədəki fəaliyyəti də geniş şərh edilmiş, eyni zamanda uşaq ədəbiyyatına və uşaq mütaliəsinə dair fikirləri ətraflı təhlil olunmuşdur.

Dosent S.Rzayev uzun illər oxuculara kitabxana xidməti, uşaqların mütaliəsinin təşkili və s. kimi maraqlı problemlərin araşdırılması ilə məşğul olmuş, "Oxuculara xidmət" (2002) adlı dərs vəsaiti nəşr etdirmişdir.

Kitabxanaşünaslıq kafedrasında hazırlanmış dissertasiyalar arasında Əli Rüstəmovun "Azərbaycan neft sənayesi işçilərinin biblioqrafik informasiya təminatı sisteminin mexanikləşdirmə və avtomatlaşdırma vasitələri əsasında işlənməsi və təhlili" mövzusunda tədqiqatı da mühüm əhəmiyyət kəsb edir. Müəllif dissertasiya işində respublika neft sənayesi işçilərinin informasiya tələbatı və sorğularını kompleks sosioloji sorğular əsasında, elektron hesablama texnikası bazasında təhlil etmiş, bu təhlil nəticəsində biblioqrafik informasiya təminatı sisteminin kəmiyyət və keyfiyyət parametrlərini meydana çıxarmış və proqnozlaşdırmışdır. Tədqiqatda müasir elektron texnikasının tətbiqi əsasında sahəvi və sahələrarası informasiyanın vahid tematik kompleksdə verilməsini və çoxcəhətli təhlilini təmin edən məntiqi informasiya sistemi işlənmiş və araşdırılmışdır. Dissertasiya işinin elmi nəticələri Azərbaycan Elmi Texniki İnformasiya İnstitutunun avtomatlaşdırılmış sistemlərinin işlənməsi və istismarı şöbəsində və Respublika Elmi Texniki Kitabxanasında tətbiq edilmişdir.





Əli Rüstəmov dissertasiya işini 1976-cı ildə N.K.Krupskaya adına Leninqrad Dövlət Mədəniyyət İnstitutunun İxtisaslaşmış Elmi Şurasında müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1976-cı ildə nəşr olunmuş "Elmi-texniki məlumatın təşkili və axtarışı sistemləri" adlı dərs vəsaitinin müəlliflərindən biri olan Əli Rüstəmov sonralar "Respublika soraq-informasiya fondlarının avtomatlaşdırılması", "İnformatika", "Kitabxanaçılıq informatikası" və s. kimi dərs vəsaitlərini, həmçinin E.Hüseynovla birlikdə Azərbaycan, rus və ingilis dillərində "İnformatika" adlı izahlı terminlər lüğətini nəşr etdirmişdir.

1991-ci ildə Azərbaycan Respublikası özünün müstəqilliyinə qovuşduqdan sonra kitabxanaşünas-biblioqraf alimlərin qarşısında dövrün tələblərinə uyğun olaraq yeni vəzifələr dururdu. Artıq cəmiyyətin həyatında baş vermiş yeniləşmələr kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq tədqiqatlarının metodologiyası, məzmunu və tədqiqat üsulları sahəsində yeni keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini tələb edirdi. Müstəqil Azərbaycan Respublikasının yeni elmi-texniki və sosial-siyasi vəzifələrinin həyata keçirilməsində kitabxanaların rolunun gücləndirilməsi vəzifələri yeni elmi tədqiqatlar proqramının hazırlanması tələbini irəli sürürdü. Professor A.Xələfovun rəhbərliyi ilə Kitabxanaşünaslıq kafedrası alimlərinin yazıb hazırladıqları və nəşr etdirdikləri dərsliklər, dərs vəsaitləri, elmi məqalələr və başqa əsərlər bu proqramın tərkib hissəsi kimi meydana gəlməyə başlamışdır.

Müstəqillik illərində professor A.Xələfovun rəhbərliyi ilə kitabxanaşünas alimlərin apardığı tədqiqatlarda xalqımızın kitabxanaçılıq işi sahəsində zəngin tarixi ənənələrinin 70 illik kommunist ideologiyası stereotiplərindən təmizlənməsi, kitabxana xidmətinin milli və ümumbəşəri dəyərlərə əsaslanması, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, kitabxana işinin bazar iqtisadiyyatına uyğunlaşdırılması, kitabxana işinin hüquqi bazasının yaradılması və demokratikləşdirilməsi, kitabxanaların kompüterləşdirilməsi prosesinin həyata keçirilməsi və s. kimi aktual məsələlər ön plana çəkilmiş və yeni dövrün tələblərinə uyğun olaraq yeni elmi istiqamət yaradılmışdır.

2000-ci ildə professor A.Xələfovun iki aspirantı Ali Attestasiya Komissiyası tərəfindən Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik İxtisaslaşdırılmış Şurada namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. Mehmanəli Məmmədovun dissertasiya işi "Azərbaycan Respublikası kitabxanalarında kitabxanalararası abonoment sistemi (tarixi inkişafı, müasir vəziyyəti və perspektivləri. 1918-1990)" adlanır. Azərbaycan Respublikası kitabxanalarında oxuculara kitabxana xidmətinin

mühüm tərkib hissəsini təşkil edən KAA sistemini tədqiqat obyekti kimi müəyyənləşdirən müəllif bu sistemin yaranması, inkişafı və abonentlərə kitabxana xidmətinin təkmilləşdirilməsində onun rolunun optimallaşdırılması istiqamətində uğurlu ümumiləşdirmələr aparmışdır. M.Məmmədov bu tədqiqat əsərində ölkəmizdə KAA-nın müqayisəli tarixi inkişaf xəttinin öyrənilməsi, bu sahədə müsbət və mənfi meyllərin aşkara çıxarılması əsasında onun elmi konsepsiyasını yaratmışdır. O, eyni zamandauzun tarixi dövr baxımından ölkədaxili və beynəlxalq abonement, həmçinin kitab mübadiləsi üsulları ilə xidmətin kompleks statistik parametrlərini müəyyənləşdirmiş, KAA-nın ölkədaxili sisteminin kitabxana-informasiya fəaliyyəti ilə bağlı olan Milli qanunlar əsasında qurulması istiqamətlərini araşdırmışdır.

2000-ci ildə "Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili (tarixi inkişafı, müasir vəziyyəti və perspektivləri. 1901-1995)" mövzusunda dissertasiya işi müdafiə edən digər gənc tədqiqatçı Elçin Əhmədov isə kitabxana işi tarixinin vacib bir istiqamətinə aydınlıq gətirmişdir. Uşaqların formalaşmasında mühüm rol oynayan müstəqil uşaq kitabxanalarının, məktəb kitabxanalarının və kütləvi kitabxanaların uşaq şöbələrinin fəaliyyətini tədqiqata cəlb edən müəllif XX əsrdə uşaqlara kitabxana xidmətinin yaranma tarixi, müasir vəziyyəti və inkişaf mərhələləri barədə təsəvvür yarada bilmişdir. Əsərdə respublikamızda uşaqların kitabxana xidməti ilə əhatə olunması problemi tarixi mərhələlər Prinsipi əsasında tədqiq olunmuş, oxucularla aparılan xidmət işinin xüsusiyyətləri təhlil olunmuşdur. E.Əhmədov dissertasiya işində uşaqlara gidmət edən hər üç növ kitabxananın kitab fondunun tərkibini müqayisələr əsasında aşkara çıxarmış, onların işinin əlaqələndirilməsi və metodik təminatı problemini hərtərəfli tədqiq etmiş, eyni zamanda Azərbaycanda uşaqlara kitabxana xidmətini daha səmərəli təşkil etmək məqsədi ilə Mərkəzləşdirilmiş Uşaq Kitabxanaları Sisteminin təşkilini məqsədəuyğun hesab etmişdir.

2002-ci ildə professor A.Xələfovun rəhbərliyi ilə Əlizadə Nəcəfov dissertant Əlizadə Nəcəfov «1923-1988-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin inkişafı» mövzusunda namizədlik dissertasiyası müdafiə etdi və tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görüldü. Bu tədqiqatda Dağlıq Qarabağ Muxtar Vilayətində Sovet hakimiyyəti illərində mədəni həyat tərzinin və əhaliyə kitabxana xidmətinin guya aşağı səviyyədə olması haqqında erməni seperatçılarının Azərbaycanın ünvanına yağdırdıqları yalanlar və iftiralar əsaslı faktlara və təkzib olunmaz dəlillərlə rədd edilir, çoxcsaylı arxiv sənədləri və rəsmi statistika əsasında həmin bölgədə mədəni quruculuq prosesinin əsl mənzərəsi yaradılır. Bu isə vilayətin kitabxana şəbəkəsinin inkişafına, burada məskunlaşmış erməni əhalisinin kitabxana kitabı və kitabxana xidmətinin müxtəlif formaları ilə təmin olunmasına xüsusi qayğı göstərdiyini, habelə vilayətdə kitabxana işi üzrə əsas göstəricilərin bütövlükdə işlər Azərbaycan, istərsə də Ermənistan Respublikaları üzrə müvafiq göstəricilərdən yüksək olduğunu sübuta yetirmişdir.





Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində mədəni mühiti, o cümlədən əhalinin maarifylənməsinə xidmət edən geniş kitabxana şəbəkə-lərinin yaranması və inkişaf mərhələlərini öyrənmək, bu istiqamətdə Azərbaycan dövlətinin humanist siyasətinin ermənilər tərəfindən saxtalaşdırılması cəhətlərinin iftira xarikterini daşımasını arxiv sənədləri, digər tarixi mənbələr və faktlar əsasında sübut etmək tədqiqatçının əsas məqsədi olmuş və o, bu vəzifənin öhdəsindən gəlmişdir.

Müəllif dissertasiya işində müxtəlif xarakterili arxiv sənədlərini və digər çoxsaylı materialları diqqətlə öyrənməsi, sistemləşdirməsi və təhlil etməsi nəticəsində DQMV-də Azərbaycan höküməti tərəfindən yaradılmış kitabxanaların 65 illik bir dövrünü (1923-1988) əhatə edən bütöv tarixi salnamə yaratmağa nail olmuşdur.

Professor A.Xələfovun rəhbərliyi ilə gənc tədqiqatçı Şəfəq İslamovanın hazırdadığı "Azərbaycan Respublikası Elmlər Akademiyası kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı (1923-1990-cı illər)" mövzusunda dissertasiya işi də xüsusi aktuallıq kəsb edir. Dissertant elmi kitabxana şəbəkəsinin tarixi mənzərəsini yaradaraq, Azərbaycan MEA sistemindəki kitabxanaların meydana gəlməsindən müasir dövrə qədərki fəaliyyətində baş vermiş mühüm proseslər, o cümlədən kitab fondlarının təşkili və formalaşması, ədəbiyyatın kataloqlaşdırılması, biblioqrafiya və informasiya işləçri, elmi işçilərə xidmətin mühüm istiqamətləri, forma və metodları, metodik fəaliyyət, beynəlxalq əməkdaşlıq və digər məsələləri tarixi ardıcıllıqla və kompleks şəkildə öyrənib ümumiləşdirmişdir. O, tədqiqatında ölkəmizin elmi potensialının inkişaf etdirilməsi vəzifələrinə uyğun olaraq MEA-nın elmi tədqiqatlarının kitabxana-informasiya təminatının optimallaşdırılması məqsədi ilə akademiya kitabxana şəbəkəsinin fəaliyyətinin yeniləşdirilməsi konsepsiyasının nəzəri-metodik və təşkilati aspektlərini də hazırlamışdır.

2003-cü ildə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Müdafiə Şurasında öz dissertsiyasını uğurla müdafiə edən Şəfəq İslamova tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Professor A.Xələfovun elmi rəhbərliyi ilə dissertasiya işi müdafiə etmiş tədqiqatçılardan biri də Knyaz Aslandır. O, "Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu (Azərbaycan kitabxanalarının materialları əsasında)" mövzusunda elmi tədqiqat aparmış, bir sıra uğurlu elmi nəticələr əldə etmişdir.

Dissertasiya işində əvvəllər kitabxanaşünas-alimlərin diqqətini o qədər də cəlb etməyən aktual bir problemin qoyuluşu, təhlili və həlli ilə yeni kitabxanaşünaslıq tədqiqatı istiqaməti yaradılmış, "şəxsiyyət - bədii ədəbiyyat – kitabxana" kommunikasiyasının əsas mahiyyətini təşkil edən nəzəri müddəalar elmi

dövriyyəyə daxil edilmişdir. Burada eyni zamanda ilk dəfə olaraq bir sıra kitabxanaların bədii-estetik tərbiyə sahəsindəki fəaliyyəti geniş miqyasda tədqiq olunaraq ümumiləşdirilmiş, bədii ədəbiyyatın oxucuları və onların tipologiyası problemi müstəqillik dövrünün müasir tələbləri baxımından araşdırılmışdır.

Elmi tədqiqat işində həmçinin bədii ədəbiyyatın təbliği istiqamətində kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi imkanları nəzərdən keçirilmiş və informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun olaraq müəyyən təkliflər irəli sürülmüş, tövsiyələr verilmişdir.

Mütəxəssislərin fikrincə, bu tədqiqatın nəticələri gənc nəslin şəxsiyyət kimi formalaşmasında əhəmiyyətli rol oynayan universal kütləvi kitabxanalarda bədii ədəbiyyatın təbliğinin təşkili haqqında mövcud olan nəzəri müddəaları tamamlayır, yeni əməli-tətbiqi tədqiqatlar üçün müəyyən perspektivlər açır. Digər tərəfdən, həmin tədqiqatın nəticələri bu sahədə yeni elmi axtarışlar aparmağa imkan yaradır.

Knyaz Aslan Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının 2004-cü ildə keçirilən iclasında dissertasiya işini uğurla müdafiə edərək, pedaqoji elmlər namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Knyaz Aslanın həmin dissertasiya işi əsasında hazırlayaraq 2005-ci ildə Bakı Universiteti Nəşriyyat Şurasının qərarı ilə nəşr etdirdiyi 300 səhifəlik monoqrafiyanın elmi redaktoru və kitabın əvvəlində çap olunmuş "Gərgin elmi yaradıcılıq axtarışlarının uğurlu bəhrəsi" adlı ön sözün müəllifi də professor A.Xələfovdur. Bu monoqrafiyada şəxsiyyətin formalaşmasına bədii ədəbiyyatın təsiri, Azərbaycan ədəbiyyatı klassiklərinin həyat və yaradıcılığında kitabın, kitabxananın və mütaliənin rolu, kitabxanalarda bədii ədəbiyyatın təbliğinin müasir vəziyyəti və təkmilləşdirilməsi istiqamətləri və s. kimi aktual məsələlər geniş şərh edilmişdir.

Professor A.Xələfovun yaratdığı kitabxanaşünaslıq elmi məktəbi 2004-cü ilin mayında daha bir nailiyyət qazandı. Belə ki, o dövrdə Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı olan pedaqoji elmlər namizədi, dosent Xəlil İsmayılov doktorluq dissertasiyası müdafiə etdi.

X.İsmayılovun 2000-ci ildə professor A.Xələfovun elmi redaktorluğu ilə işıq üzü görmüş "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər; tarixi, müasir vəziyyəti və perspektivləri)" adlı monorafiyası Azərbaycanda kitabxanaların metodik təminat sisteminin yaradılması və təkmilləşdirilməsi məsələlərinin elmi cəhətdən ümumiləşdirilməsi və təhlili məsələlərinə həsr olunmuşdur. Kitabda ilk dəfə olaraq respublikamızda metodik təminatın nəzəri və təcrübi inkişaf yolları tədqiqata cəlb edilmiş, kitabxanaçılıq işi üzrə ilk metodik mərkəzlərin meydana gəlməsi, ayrı-





ayrı tarixi mərhələlərdə dövlət kütləvi kitabxana sistemi ilə yanaşı, Elmlər Akademiyası, Həmkarlar Ittifaqı, tibb, texnika, kənd təsərrüfatı, təhsil və uşaq kitabxana şəbəkələrinin metodik təminatı zəngin arxiv materialları əsasında araşdırılmışdır.

Həmin monoqrafiya X.İsmayılovun doktorluq dissertasiyasının əsasını təşkil etmiş və onun elmi məsləhətçisi də məhz professor A.Xələfov olmuşdur. Belə ki, BDU-da yaradılmış Birdəfəlik Dissertasiya Şurasının 15 may 2004-cü ildə keçirilən iclasında Xəlil İsmayılov "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi: 1918-2000-ci illər (Tarixi, müasir vəziyyəti və perspektivləri)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

2000-ci illərdə professor A.Xələfov elmi məktəbi daha da genişlənmişdir. Belə ki, Sevda Xələfova, Xuraman Ağayeva, Kərim Tahirov, Pərviz Kazımi dissertasiya işləri müdafiə edərək, fəlsəfə doktoru alimlik dərəcəsi almışlar.

2011-2017-ci illərdə İradə Tuliyeva, Arzu Vəliyeva, Tahirə Bağırova, Solmaz Sadıqova, Sima İsmayılova, Cavid Cəfərov, Zahidə Rzayeva, İradə Ələsgərova, Leyla Abasova, Rəşad Qardaşov, Nigar İsmayılova, Elçin Məmmədov, Eldəniz Məmmədov dissertasiya işləri müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsinə layiq görüldülər.

Bundan başqa, 2018-ci ildə Kitabxanaşünaslıq kafedrasının dissertantı Mələk Xanım Hacıyevanın "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının beynəlxalq əlaqələri (1923-2017-ci illər)" mövzusunda (elmi rəhbər prof. Abuzər Xələfov), Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının doktorantı Sevda Səfərovanın "Müstəqillik illərində Azərbaycanda dərsliklərin nəşri təhsil islahatlarinin əsas amili kimi (2001-2011-ci illər)" mövzusunda (elmi rəhbər dos. Knyaz Aslan) dissertasiya işlərinin müzakirələri təşkil edilmiş, həmin elmi-tədqiqatların müdafiəsinə razılıq alınması üçün və Birdəfəlik Dissertasiya Şurasının yaradılması haqqında Bakı Dövlət Universiteti rektorunun Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına məktubu göndərilmişdir.

Müstəqillik şəraitində təhsil sahəsində aparılan islahatların əsas məqsədi müstəqil Azərbaycan Respublikasının təhsil sisteminin dünya standartları səviyyəsinə qaldırılması məsələsini həll etməkdir. Bu mühüm işdə fakültə Elmi Şurası kollektivin əsas istinad nöqtəsi kimi fəaliyyət göstərir, onun işini istiqamətləndirir.

Kitabxanaçılıq-informasiya fakültəsində yüksək ixtisaslı kadrların hazırlanmasında, elmi-tədqiqat və metodiki işlərin aparılmasında, pedaqoji kadrların seçilib, yerləşdirilməsində 1962-ci ildən yaradılan fakültə Elmi Şurasının rolu böyükdür.

Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurası fəaliyyət göstərdiyi müddətdə şərəfli yol keçmiş, fakültənin tarixində həlledici rol oynamışdır. Fakültədə elə bir tədris, elm və tərbiyə işi olmamışdır ki, Elmi Şuranın müzakirəsindən kənara qalsın. Elmi Şura fakültə tədris planının, fənn proqramlarının, metodik vəsaitlərin, ixtisas kursu, seçmə kurs və ixtisaslaşma proqramlarının, istehsalat təcrübəsi proqramlarının müzakirə və təsdiqində, elmi-tədqiqat işlərinin istiqamətinin müəyyənləşdirilməsində, dissertasiya işi və buraxılış işi mövzularının təsdiqində fakültənin ali orqanı kimi mühüm işlər görür. Elmi Şura eləcə də fakültədə təlim-tərbiyə işlərinin məqsədyönlü aparılmasına, tədris prosesinin keyfiyyətinin daha da yüksəldilməsinə istiqamət verir. Dekan və fakültəyə qəbul edilən bütün müəllimlər Elmi Şurada seçilməli olduqlarından professor-müəllim heyətinin komplektləşdirilməsində, seçilib yerləş-dirilməsində Elmi Şuranın rolu olduqca böyükdür.

Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurası respublikamızda kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslığa dair yeganə elmi mərkəz olduğundan burada tez-tez kitabxana işinin inkişafına, əhaliyə kitabxana xidmətinin aktual problemlərinə dair məsələlər müzakirə edilir, məruzələr dinlənilir, elmi tövsiyələr hazırlanır.

1960-1970-ci illərdə Elmi Şuranın fəaliyyətində əsas yerlərdən birini müstəqil Kitabxanaçılıq fakültəsi üçün fərdi tədris planının təsdiqi tutmuşdur. Bu plan 1970, 1980 və 1990-cı illərdə üç dəfə tərtib və təsdiq edilmişdir. Bunlar o zaman Sovet İttifaqı miqyasında keyfiyyətli tədris planları kimi qiymətləndirilmişdir. 1990-cı illərdə Azərbaycan Respublikasının Təhsil Qanununa əsasən ölkədə çoxpilləli təhsil sitseminə keçilməsi ilə əlaqədar olaraq fakültə Elmi Şurası 2 dəfə bakalavriatura təhsil pilləsi üçün tədris planını, son illərdə isə magistratura təhsil pilləsi üçün tədris planını müzakirə və təsdiq etmişdir. Elmi Şura son dövrlərdə yeni Təhsil Qanununa uyğun olaraq bütün fənn proqramlarının təzədən işlənib hazırlanmış variantlarını müzakirə və təsdiq etmişdir.

Məlum olduğu kimi, yüksək ixtisaslı kadrların hazırlığının strategiyası hesab edilən tədris planlarının hazırlanması və tətbiqi dövrün tələblərinə, elmi-texniki tərəqqinin səviyyəsinə və ixtisasın gələcək perspektivlərinə əsaslanır. Mövcud olduğu 65 il ərzində Kitabxanaçılıq-informasiya fakültəsində 9 tədris planından istifadə edilmişdir. İlk tədris planı 1947-ci ildə tərtib edilmişdir. Bu plan Sovetlər Birliyində ilk universitet tədris planı idi. 1955-ci ildə kitabxanaşünas-biblioqraf ixtisası üzrə ilk universitet tədris planı, 1970-cı ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin yeni tədris planı, 1984-cü ildə ilk dəfə olaraq ölkə üzrə Kitabxanaçılıq fakültəsinin fərdi tədris planı təsdiq edildi.

Azərbaycanın müstəqilliyi illərində Təhsil Qanununun tələblərinə uyğun olaraq, bakalavr pilləsi üzrə tədris planı işlənib hazırlandı. 1996-ci ildən Təhsil Nazirliyi tərəfindən təsdiq edilən ixtisas standartı meydana gəldi. Hazırda Boloniya prosesi ilə əlaqədar tədris planları yenidən işlənmişdir və bu tədris planında dünya kitabxanaçılıq təhsilinin ən mühüm nailiyyətləri öz əksini tapmışdır.





Hazırda Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurasının tərkibinə 15 nəfər – dekan dos. Azad Qurbanov (sədr), prof. Abuzər Xələfov, kafedra müdirləri prof. Xəlil İsmayılov, dos. Knyaz Aslan, dos. Elçin Əhmədov, dos. Nadir İsmayılov, dekan müavinləri dos. Mehmanəli Məmmədov (sədr müavini), dos. Ələmdar Bayramov, dos. Pərviz Kazımi, dos. Sevda Xələfova, dos. Xuraman Ağayeva (elmi katib), dos. Nigar İsmayılova, həmçinin tələbə təşkilatlarının nümayəndələri Qüdsi Məlikov, Rəcəb Məmmədzadə, Türkan Mustafazadə daxildir.

Kitabxanaçılıq-informasiya fakültəsində tələbələrin elmi-tədqiqat vərdişlərinin formalaşmasında Tələbə Elmi Cəmiyyəti mühüm rol oynayır.

Fakültədə yüksək ixtisaslı kadr korpusunun hazırlanmasında çoxillik fəaliyyət təcrübəsi olan TEC çox mühüm rol oynayır.

Hələ 1949-cu ildə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının nəzdində "Kitabxanaşünaslıq və biblioqrafiya" adlı ilk tələbə elmi dərnəyi yaradılmışdır. 1962-ci ildə müstəqil Kitabxanaçılıq fakültəsi yarananda həmin dərnəyin bazasında Tələbə Elmi Cəmiyyəti təşkil olunmuşdur.

1960-cı illərin ikinci yarısından etibarən Kitabxanaçılıq fakültəsi Tələbə Elmi Cəmiyyətinin beynəlxalq əlaqələri yaranmağa başlamış, sonrakı dövrlərdə bu proses daha dinamik xarakter almışdır. Tələbə Elmi Cəmiyyəti bu dövrlərdə Moskva, Sankt-Peterburq, Kiyev, Daşkənd Mədəniyyət İnstitutları ilə, Vilnüs Dövlət Universitetinin, Tbilisi Pedaqoji İnstitutunun müvafiq şöbələri ilə əlaqələr yaratmış, BDU-nun Kitabxanaçılıq fakültəsinin tələbələri həmin institut və universitetlərin təşkil etdiyi elmi konfranslarda, həmin institutların tələbələri isə Kitabxanaçılıq fakültəsinin təşkil etdiyi konfranslarda fəal iştirak etmişlər.

1982-ci ildə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin təşkil etdiyi Beynəlxalq Elmi Konfransda həmin universitet və institutların tələbələri də yaxından iştirak etmişlər.

Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri müntəzəm keçirilən Respublika Tələbə Elmi Konfranslarına ənənəvi olaraq Tələbə Elmi Cəmiyyətinin xətti ilə qoşularaq fəallıq göstərmiş, bir sıra mühüm göstəricilərə imza atmışlar. Ayrı-ayrı dövrlərdə fakültənin əlaçı tələbələrindən Mirzəməmməd Novruzov, Rasim Süleymanov, Nadir İsmayılov, Kərim Tahirov, Knyaz Aslan, İradə Həmidova və başqaları belə elmi tədbirlərdə aktual mövzularda məruzələrlə çıxış etmiş, müxtəlif dərəcəli diplomlara layiq görülmüşlər.

Azərbaycanın müstəqilliyi illərində fakültədə Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti yeni dövrün tələblərinə uyğun olaraq yenidən qurulmuşdur. Hazırda dos. P.Kazıminin rəhbərlik etdiyi fakültə Tələbə Elmi Cəmiyyətinin bakala-

vriatura və magistratura pillələri üzrə 160-dan çox üzvü vardır. Tələbə Elmi Cəmiyyəti özündə 4 dərnəyi birləşdirir: "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Kitabşünaslıq və Nəşriyyat işi", "Kitabxana resursları və informasiya-axtarış sistemləri". Dərnəklərdə müxtəlif mövzularda məruzələrin müzakirəsi ilə yanaşı, elmi disputların, olimpiadaların, müsabiqələrin keçirilməsi və s. kimi üsullardan geniş istifadə edilir.

Beləliklə, 1947/1948-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin yanında Kitabxanaçılıq şöbəsi kimi yaranan, 1962-ci ildən müstəqil fəaliyyət göstərən Kitabxanaçılıq-informasiya fakültəsi doğma universitetin yüksək ixtisaslı elmi potensiala malik kollektivinin, professor-müəllim heyətinin köməyi və qayğısı sayəsində inkişaf etmiş, universitetin ən qabaqcıl fakültələrindən birinə çevrilmişdir. Ötən illər ərzində Kitabxanaçılıq-informasiya fakültəsi mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxanalar üçün peşəkar kadrlar hazırlamaq sahəsində həm ölkə daxilində, həm də beynəlxalq aləmdə müsbət göstəriciləri, tədris və elmi nailiyyətləri ilə fərqlənən bir fakültə kimi formalaşmışdır. Fakültə şərəfli inkişaf yolu keçmiş, 6 mindən artıq yüksək ixtisaslı peşəkar kitabxanaçı-informasioloq kadrları hazırlamışdır. Fakültənin hazırladığı kadrlar demək olar ki, respublikamızın bütün kitabxanalarında fəaliyyət göstərir, kitabxana işinin, müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində yenidən qurulmasında, əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində yaxından iştirak edir. Öz yüksək ixtisas biliyi, intellektual səviyyəsi, peşəkarlığı ilə fərqlənən və doğma Bakı Dövlət Universitetinə başucalığı gətirən bu kadrlar demək olar ki, respublikamızın bütün kitabxana şəbəkələrində, o cümlədən elmi, elmi-texniki, xüsusi, təhsil və kütləvi kitabxanalarda müvəffəqiyyətlə çalışırlar. Respublikamızda fəaliyyət göstərən çoxsaylı kitabxanalarda uğurla işləyən, kitabxana işinə rəhbərlik edən, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin məzunlarının fəaliyyəti geniş ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Bu da universitetin professor-müəllim heyətinin, fakültənin bütün kollektivinin müvəffəqiyyətidir.

Ümumiyyətlə, 1962-2019-cu illərdə Bakı Dövlət Universitetində Kitabxanaçılıq-informasiya fakültəsinə 4 dekan başçılıq etmişdir: 1962-1970; 1979-1993-cü illərdə Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov; 1970-1979-cu illərdə Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Hüseyn oğlu Əliyev; 1993-2012-ci illərdə tarix elmləri doktoru, professor Xəlil İsmayıl oğlu İsmayılov; 2012-ci ildən fizika-riyaziyyat elmləri namizədi, dosent Azad İsa oğlu Qurbanov.

Kitabxanaçılıq-informasiya fakültəsində tədrisin təşkili və elmi-tədqiqat işlərinin aparılması ilə 50 nəfərə yaxın bacarıqlı elmi-pedaqoji kollektiv məşğul olur. Professor-müəllim heyəti ardıcıl şəkildə səmərəli elmi-pedaqoji fəaliyyətlə məşğul olur, qiymətli tədqiqatlar aparır, aktual nəzəri və elmi problemlərə dair monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri nəşr etdirir.





Hazırda Kitabxanaçılıq-informasiya fakültəsi Azərbaycan Respublikasında kitabxanaşünas-informasioloq, kitabşünas və nəşriyyat redaktoru ixtisasları üzrə kadr hazırlayan yeganə fakültədir. Bu fakültə ölkəmizdə kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslığa dair yeganə elmi mərkəz olduğundan burada tez-tez kitabxana işinin inkişafına, əhaliyə kitabxana xidmətinin aktual problemlərinə dair məsələlər müzakirə edilir, məruzələr dinlənilir, elmi tövsiyələr hazırlanır.

Müstəqillik illərində kitabxanaçılıq-informasiya fakültəsinin əsas göstəricilərindən biri də onun maddi-texniki bazasının möhkəmləndirilməsi, tələbə qəbulunun stabilləşdirilməsi olmuşdur. Fakültə 2008/2009-cu tədris ilindən Boloniya prosesinə qoşulmuşdur.

Hazırda fakültənin bakalavriatura səviyyəsində Azərbaycan, ingilis və rus bölmələri fəaliyyət göstərir. Kitabxanaçılıq və informasiya ixtisası üzrə əyani Azərbaycan şöbəsində 354, qiyabi Azərbaycan şöbəsində 55, ingilis şöbəsində 56, rus şöbəsində 10 tələbə oxuyur. Kitabşünaslıq ixtisası üzrə əyani Azərbaycan şöbəsində 91, qiyabi Azərbaycan şöbəsində isə 10 tələbə təhsil alır.

Fakültənin magistratura təhsil pilləsində 5 ixtisas üzrə 23 nəfər magistr təhsil alır.

Həmçinin fakültədə doktoranturanın hər iki pilləsi: fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə 8 nəfər elmi axtarışlarını davam etdirir.

Hazırda fakültədə 4 kafedra, 3 tədris laboratoriyası, 1 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.

Ötən illər ərzində respublikamızda ali kitabxanaçılıq təhsilinin inkişafı sahəsində böyük uğurlar qazanılmış, fakültə kitabxanaçılıq təhsilinin və elminin ən qabaqcıl mərkəzlərindən birinə çevrilmiş, 15 mindən artıq yüksək ixtisaslı-peşəkar kitabxanaçı-informasioloq kadrları hazırlanmışdır. Müstəqillik illərində isə Kitabxanaçılıq-informasiya fakültəsinin kadr hazırlığı sahəsindəki fəaliyyəti həm kəmiyyət, həm də keyfiyyət cəhətdən yaxşılaşmış, bakalavriatura və magistratura təhsil pillələri üzrə 2500-ə yaxın kadr hazırlanmışdır. Həmin kadrlar demək olar ki, respublikamızın bütün kitabxanalarında fəaliyyət göstərir, kitabxana işinin müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində yenidən qurulmasında, əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində yaxından iştirak edirlər.

Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi beynəlxalq əlaqələr sahəsində zəngin təcrübəyə malikdir. Fakültə fəaliyyətə başladığı ilk vaxtlardan etibarən keçmiş SSRİ-nin nüfuzlu elm, təhsil mərkəzləri ilə əlaqələr yaratmağa başlamış və bu əlaqələr tədrisin keyfiyyətini və mütəxəssis hazırlığınının səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Fakültə-

nin Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Daşkənd Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Vilnyus Dövlət Universiteti, Tbilisi Dövlət Pedaqoji İnstitunun Kitabxanaçılıq fakültələri ilə sıx elmi əlaqələri və əməkdaşlığı olmuşdur. Bu elmi əlaqələrin yaradılmasında, inkişafında böyük rolu və müstəsna xidmətləri olmuş alimlər arasında professor Abuzər Xələfovun, professor Zöhrab Əliyevin, professor Xəlil İsmayılovun, professor Bayram Allahverdiyevin, dosent Rasim Kazımovun və başqalarının xüsusi rolu olmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsi respublika daxilində də müvafiq elm, təhsil və mədəniyyət ocaqları ilə sıx elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir. Bu baxımdan fakültənin M.F.Axundov adına Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Prezident Kitabxanası və digər respublika əhəmiyyətli kitabxanalarla əlaqələri daim inkişaf etmişdir. Fakültənin bu əlaqələri, xüsusən də respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra daha da intensivləşmişdir.

2012-ci ilin noyabr ayında Bakı Dövlət Universiteti kitabxanaçılıq-informasiya fakültəsinin 65 illiyi təntənəli şəkildə qeyd edilmişdir.

Bu gün Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi potensialı intellekt kapitalına çevirmək istiqamətində görülən böyük işlərin reallaşmasında, cəmiyyətin informasiya tələbatının ödənilməsində, xalqımızın maariflәndirilməsində, elmi-texniki tərəqqinin təmin olunmasında mühüm rol oynayan, xalqımızın milli mədəni sərvəti olan kitabxanalar və nəşriyyat sistemi üçün yüksək ixtisaslı kadrlar hazırlayan ilk və əsas təhsil - elm mərkəzidir.

Ötən illərdə respublikamızda ali kitabxanaçılıq təhsilinin inkişafı sahəsində böyük uğurların qazanılmışı, fakültə ali kitabxanaçılıq təhsilinin və kitabxanaşünaslıq elminin ən qabaqcıl mərkəzlərindən birinə çevrilmişdir. Əlbəttə, bu uğurlar fakültənin ilk dekanı olmuş və 25 ildən artıq ona rəhbərlik etmiş, Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, Bakı Dövlət Universitetinin fəxri professoru, tarix elmləri doktoru, professor Abuzər Xələfovun və fakültə kollektivinin gərgin əməyi, məhsuldar elmi-pedaqoji fəaliyyəti nəticəsində əldə olunmuşdur. Professor Abuzər Xələfov nəinki öz spesifikasına görə universitetin digər fakültələrindən fərqlənən yeni fakültə yaradıb, həmçinin onun uzunmüddətli dinamik inkişafını təmin edən milli kitabxanaçılıq təhsili konsepsiyası işləyərək həyata keçirmişdir.

Hazırda fakültənin kollektivi respublikamızın son illərdə qazandığı iqtisadiyyat, elm, təhsil, mədəniyyət və beynəlxalq sahədəki uğurları ilə fəxr edir. Bu uğurların qazanılmasını təmin edən, ulu öndərin layiqli davamçısı İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyir və təhsil sahəsindəki dövlət proqramlarının həyata keçirilməsində, təhsil islahatlarının aparılmasında yaxından iştirak edir.





## ƏDƏBİYYAT


1. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəzeti, 1999, 14 mart.*
2. *"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu // Xalq qəzeti, 1998, 18 aprel.*
3. *Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qəz., Bakı, 2007, 21 aprel.*
4. *Aslan K. Elm və təhsil fədaisi: Monoqrafiya (Əməkdar elm xadimi, professor A.Xələfovun həyat və fəaliyyətinə həsr edilir). Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, 240 s.*
5. *Aslan K. Azərbaycanda kitabxanaşünaslıq elminin formalaşmasında və ali kitabxanaçılıq təhsilinin inkişafında professor Abuzər Xələfovun tarixi missiyası: Məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal, 2012, №3 (9), s.35-49.*
6. *Aslan K., Qurbanov A. Kitabxanaçılıq-informasiya fakültəsi – 65 // Kitabxanaşünaslıq və informasiya, 2012, №3 (9), s.12-34.*
7. *Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006, 312 s.*
8. *Xələfov A Azərbaycanda kitabxanaçılıq təhsilinin inkşafı. Bakı: Maarif, 1987,130 s.*
9. *Xələfov A. Azərbaycanda ali kitabxanaçılıq təhsili. Bakı, 1998,124 s.*
10. *Kitabxanaçılıq-informasiya fakültəsi – 60: Biblioqrafik məlumat kitabı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008, 274 s.*
11. *Kitabxanaçılıq-informasiya fakültəsi: Biobiblioqrafik lüğət. Bakı: Mütərcim, 2012, 220 s.*
12. *Mərdanov M. Azərbaycan təhsili inkişaf yollarında: uğurlar, problemlər, vəzifələr // Azərbaycan məktəbi, 2004, №4, s.12-39.*


## РОЛЬ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА В ФОРМИРОВАНИИ ВЫСШЕГО БИБЛИОТЕЧНОГО ОБРАЗОВАНИЯ И НАУЧНОЙ ШКОЛЫ БИБЛИОТЕКОВЕДЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**ХАЛАФОВ АБУЗАР**
**КНЯЗЬ АСЛАН**

### *РЕЗЮМЕ*

*В научной статье анализированы развития высшего библиотечного образования, а также формирования научной школы по библиотековедения в Азербайджане под руководством заслуженного деятеля науки, профессора*

*Абузара Халафова. В статье говорится, что Библиотечно-информационной факультет один из старейших факультетов Бакинского Государственного Университета, был образован в 1947/1948 учебном году. Выпускники факультета занимают видное положение в науке и культуре. Они работают в информационных центрах, библиотеках всех типов и видов, издательствах и редакциях, кадровых агентствах, на телевидении и радио и других организациях культуры и искусств.*

*Для повышения качества образования в факультете усилена материально-техническая и информационная база обучения, реорганизована работа учебно-методического совета в этом направлении. Усилен контроль за проведением индивидуальной работы со студентами, качественным выполнением курсовых работ.*

*Библиотечно-информационный факультет сформировался как научный центр по подготовке высококвалифицированных кадров в области библиотековедческого, библиографоведческого и книговедческого образования в Азербайджане. Большое место в работе факультета занимает научно-исследовательская деятельность преподавателей. В настоящее время на факультете подготовлено более 30 докторов и кандидатов наук. Они являются продолжителями научной школы библиотековедения профессора Абузара Халафова.*

***Ключевые слова:*** *Высшее библиотечное образование, научная школа библиотековедения, Бакинский Государственный Университет, Библиотечно-информационной факультет, подготовка высококвалифицированных кадров, библиотековедеского, библиографоведение, книговедение, научный центр, научно-исследовательская деятельность.*

## ROLE OF BAKU STATE UNIVERSITY IN THE FORMATION OF HIGHER LIBRARY EDUCATION AND SCIENTIFIC SCHOOL LIBRARY IN AZERBAIJAN

**KHALAPHOV ABUZAR**
**ASLAN KNYAZ**

### *SUMMARY*

*The scientific article analyzes the development of higher library education, as well as the formation of a scientific school on library science in Azerbaijan under the leadership of Honored Scientist, Professor Abuzar Khalafov. The article says that the Library and Information Faculty is one of the oldest faculties of the Baku State University, was founded in the 1947/48 academic year. Faculty graduates occupy a prominent position in science and culture. They work in information centers, libraries of all types and kinds, publishing houses and editorial offices, personnel agencies, on television and radio, and other organizations of culture and the arts.*

*To improve the quality of education in the faculty, the material and technical and information base of training was strengthened, the work of the educational and*





*methodical council in this direction was reorganized. Enhanced control over the conduct of individual work with students, high-quality implementation of coursework.*

*The Library and Information Faculty was formed as a scientific center for the training of highly qualified personnel in the field of library science, bibliography and bibliographic education in Azerbaijan. A large place in the work of the faculty is occupied by the research activities of teachers. Currently, the faculty has trained more than 30 doctors and candidates of science. They are the followers of the scientific school of library science of Professor Abuzar Khalafov.*

***Key words:*** *Higher library education, scientific school of library science, Baku State University, Faculty of Library science-information, preparation of highly qualified personnel, library science, bibliography, bibliology, science center, research activity.*